**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ**

***Əlyazması hüququnda***

**ŞƏBNƏM MƏHSİM qızı SƏFƏROVA**

# CORC BUŞUN (OĞUL) PREZİDENTLİYİ DÖVRÜNDƏ ABŞ-NİN XARİCİ SİYASƏTİNDƏ HƏRBİ GÜCDƏN İSTİFADƏ

**İxtisas: HSM - 060211 - Ölkəşünaslıq (ABŞ üzrə)**

**Magistr elmi dərəcəsi almaq üçün təqdim edilmiş**

**D İ S S E R T A S İ Y A**

**Elmi rəhbər: t.ü.f.d. Nigar Əsgərova**

**Bakı-2022**

## M Ü N D Ə R İ C A T

**GİRİŞ.........................................................................................................................3**

**I FƏSİL. CORC BUŞUN HAKİMİYYƏTİ DÖVRÜNDƏ ABŞ-NİN XARİCİ SİYASƏTİNDƏ HƏRBİ GÜC FAKTORUNUN ÖNƏ ÇIXMASI........................7**

1.1. Corc Buşun haakimiyyəti ərəfəsində ABŞ-nin geosiyasi prioritetləri................7

1.2. 11 sentyabr terrorunun ABŞ-nin xarici siyasətinə təsiri..................................16

1.3. ABŞ Milli Təhlükəsizlik Strategiyasında Buş doktrinasının yeri....................30

**II FƏSİL. CORC BUŞUN PREZİDENTLİYİ DÖVRÜNDƏ BEYNƏLXALQ TERRORİZMLƏ MÜBARİZƏ SİYASƏTİ.........................................................................................................38**

2.1. Beynəlxalq anti-terror koalisiyasının yaradılması və “terrora qarşı müharibə” nin hədəfləri.......................................................................................................38

2.2. ABŞ-nin Əfqanıstan və İraqa hərbi müdaxiləsi...............................................45

2.3. ABŞ-nin xarici siyasətdə hərbi gücdən istifadəsinin regiona təsiri................55

**NƏTİCƏ..………....……………………………………………..………...66**

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI..........................................................................................................69**

# G İ R İ Ş

**Mövzunun aktuallığı:** XVIII əsrin sonlarında müstəqillik qazanmış Amerika Birləşmiş Ştatları uzun tarixi proseslərdən keçərək bugünkü qüdrətinə gəlib çatmışdır. Hazırda dünyanın yeganə supergücü sayılan Birləşmiş Ştatlar beynəlxalq arenada da hər zaman öz sözünü deyən bir dövlətdir. Siyasi, iqtisadi, hərbi və digər sahələrdə rəqib tanımayan bu dövlət dövlətlərarası münasibətlərə kifayət qədər təsir edə bilmə gücünə malikdir.

Amerika Birləşmiş Ştatlarının bu gücü təsadüfi deyildir. Qatıldığı iki dünya müharibəsindən ən çox qazanan və ən az itki görən dövlət olaraq çıxmışdır. ABŞ Soyuq müharibədən də qalib olaraq ayrılmış və yeganə fövqəldövlət adını qazanmışdır. Sovet İttifaqının dağılmasından sonra yaranan birqütblü dünyada ABŞ-nin əsas məqsədi yenidən öz hegemon rolunu bərpa etmək idi. Məhz həmin dövrdən başlayaraq, Birləşmiş Ştatlar prezidentləri xarici siyasətdə buna üstünlük verməyə başladılar.

ABŞ-nin Yaxın Şərq siyasətini şərtləndirən amilləri 1991-ci ilə qədər və 1991-ci ildən sonrakı dövrə ayıraraq nəzərdən keçirsək, görə bilərik ki, bu amillərin sadəcə bəziləri dəyişmişdir, ümumi olaraq isə, eyni qalmışdırlar. Məsələn, 1991-ci ilə qədər bunlara Sovet İttifaqının bu regionda mövqeyinin güclənməsi, ABŞ-nin enerji təhlükəsizliyi və İsrail dövlətinin təhlükəsizliyi kimi amillər aid idisə, Soyuq müharibədən sonrakı dövrdə ABŞ-nin özünün təhlükəsizliyi və yenə də enerji təhlükəsizliyinin təmini və İsrailin təhlükəsizliyi kimi amillər daxil idi.

2000-ci ilin prezident seçkilərində qalib gələn Corc Uoker Buşun hakimiyyəti dövrü bu cəhətdən diqqətə layiqdir. Buşun hakimiyyət illərinə təsadüf edən gözlənilməz terror hadisəsi, yəni 11 sentyabr 2001-ci hücumları başda ABŞ olmaqla, bütün dünyanın gündəmini və taleyini dəyişməklə qalmamış, həm də Buş adminstrasiyasının daxili və xarici siyasət xəttinə böyük dəyişikliklər gətirmişdir. Belə ki, 11 sentyabr 2001-ci ilə qədər əsas məqsədi yeni

neft-qaz mənbələri əldə etmək olan Buş hökuməti, terror hücumlarından sonra öz istiqamətlərinin terror üzərində qlobal müharibəyə çevirdi.

Bu mövzuda beynəlxalq cəmiyyətdən özünə tam dəstək gözləyən Corc Buş onunla eyni fikirdə olmayan dövlətləri terror dəstəkçiləri olaraq görməyə başladı. Bu çərçivədə Buş hökuməti əvvəlcə Əfqanıstan, sonra isə İraqa qarşı hərbi gücdən istifadə etdi. C. U. Buşun terrorla müharibəsində əsas hədəflərə çevrilən bu dövlətlərin taleyi tamamilə dəyişdi. Adı çəkilən dövlətlər müasir dövrdə də siyasi sabitlik və əmin-amanlıq qazana bilməmiş və daxili çəkişmələr və vətəndaş müharibələri kimi böhranlardan əziyyət çəkirlər.

11 sentyabr hadisələri və ABŞ-nin 43-cü prezidenti olan Corc Uoker Buşun buna uyğun həyata keçirdiyi siyasət ABŞ siyasi tarixinin ən önəmli hadisələrindən biridir. Bu cəhətdən mövzu indiyə qədər ən çox araşdırılan və bundan sonra da araşdırılacaq məsələlərdən biri hesab olunur.

Digər tərəfdən uzun illərdir ABŞ-nin gündəmində əhəmiyyətli yer tutan və tutmağa da davam edən Yaxın Şərq regionu siyasətində dönüş nöqtəsi kimi sayıla bilər. Digər bir cəhətdən yanaşsaq, ölkəmizə məsafə olaraq heç də uzaqda yerləşməyən Yaxın Şərq regionu geniş karbohidrogen yataqları ilə zəngindir. Ölkəmizin də enerji ölkəsi olduğunu da nəzərə alsaq, ABŞ-nin Yaxın Şərq siyasətinin araşdırılması əhəmiyyət kəsb edən məsələlərdən biri olaraq sayıla bilər. Bütün bunlar mövzumuzu aktual edir və onu öyrənilməyə və araşdırılmaya dəyər edir.

**Problemin öyrənilmə dərəcəsi:** Bəhs edilən mövzu Azərbaycan üçün ayrılıqda tədqiq edilən bir mövzu olmadığı üçün, ədəbiyyat siyahısını əsasən xarici mənbələr təşkil edir

Tədqiqat işinin araşdırma bazasını türk və ingilis dillərində nəşr edilən mənbələr təşkil edir. Corc U. Buşun xarici siyasətin ümumi müddəalarını və hərbi gücdən istifədəsini şərtləndirən amilləri araşdırmaq üçün Fidan Özben, Ertan Efegil, Ceyms Makkormik, Uolter Lafeber, Onur Gürel, Nikolas Uiller kimi tədqiqatçılarından mənbələrindən istifadə edilmişdir.

İraq və Əfqanıstana müdaxilə və onun gətirdiyi nəticələrin tədqiqat bazasını isə Terese Delpeç, Piter Bruks, Qrit Vitte və Cenker Korhan Demir kimi müəlliflərin məqalələri təşkil edir.

İşin yerinə yetirilməsi zamanı internet resurslarından, o cümlədən Bill Klinton və Corc U. Buş kimi prezidentlərin arxivlərindən və kütləvi informasiya vasitələrindəki çıxışlarından istifadə olunmuşdur.

**Tədqiqatın işlənmə metodları:** Tədqiqat işinin yazılması zamanı müxtəlif metodlardan istifadə olunmuşdur. Tarixi tədqiqat metodu vasitəsilə tarixi dəlillərin toplanması və tarixi hadisələrin meydana gəlmə ardıcıllıqları əks olunmuşdur. Müqayisə metodu ilə prezidentlərin xarici siyasətlərindəki oxşar və fərqli cəhətlər aşkarlanmış və daha dərindən analiz edilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri:** İşin məqsədi dedikdə, Buş adminstrasiyasını hərbi gücdən istifadəyə sövq edən elementlərin müəyyənləşdirilməsi və bu güc istifadəsinin sözügedən region üçün yaratdığı vəziyyət nəzərdə tutulur. Tədqiqatın məqsədinə çatmaq üçün aşağıdakı vəzifələr yerinə yetirilmişdir:

- 11 sentyabr 2001-ci ildən sonra ABŞ-nin Yaxın Şərq siyasətinin təşkil edən amillərin müəyyənləşdirilməsi,
- Hərbi gücdən istifadəni formalaşdıran şərtləri müəyyən etmək,
- Beynəlxalq anti-terror koalisiyasının Əfqanıstan və İraqa müdaxiləsinin araşdırılması,
- Hərbi müdaxilələrdən sonra bu ölkələrdə siyasi sistemin və sabitliyin yaradılmasına göstərilən cəhdlərin tədqiq edilməsi,
- Tədqiqat işində tarixi prosesləri xronoloji ardıcıllıqla təqdim etmək.

**Tədqiqat işinin elmi yeniliyi:** Tədqiqat işinin elmi yeniliyi müasir dövrdə Corc Uoker Buş adminstrasiyasının xarici siyasətində hərbi gücdən istifadəsini şərtləndirən amillərə kompleks yanaşılmasındadır. ABŞ-nin Əfqanıstana hərbi müdaxiləsi və ABŞ-nin müdaxilələrindən sonra İraq və Əfqanıstanda yeni siyasi sistemlərin qurulması cəhdləri aydın şəkildə açıqlanmışdır.

**Dissertasiya işinin təcrübi əhəmiyyəti:** Dissertasiya işi ABŞ-nin 43-cü prezidenti Corc U. Buşun hakimiyyətinə qədərki və hakimiyyət illərindəki ABŞ xarici siyasətinin əsas istiqamətlərini və prioritetlərini nəzərdən keçirir. Mövzu üzrə araşdırma etmək istəyən şəxslərin məsələ ilə bağlı baza bilikləri əldə etməsinə imkan yarada bilər.

**İşin trukturu və həcmi:** Tədqiqat işi Giriş, Nəticə, Ədəbiyyat siyahısı və mövzunu əhatə edən, hər birində üç altfəsil olmaqla iki fəsildən ibarətdir.

# I FƏSİL. CORC BUŞUN HAKİMİYYƏTİ DÖVRÜNDƏ ABŞ-NİN XARİCİ SİYASƏTİNDƏ HƏRBİ GÜC FAKTORUNUN ÖNƏ ÇIXMASI

## 1.1 . C. Buşun hakimiyyəti ərəfəsində ABŞ-nin geosiyasi prioritetləri

Soyuq müharibədən sonrakı dövr dünyanın geosiyasi quruluşunun yenidən təşkil olunmasını tələb edirdi. Bu dövrdə ABŞ-nin başlıca prioriteti özünün qlobal hegemonluğunu təşkil etmək idi. 1991-ci ildə əvvəlcə Varşava müqaviləsinin, ardınca isə, SSRİ-nin dağılması ilə ABŞ yeganə super güc oldu. Bu da öz növbəsində, bir çox şəxslərdə ABŞ-nin “Pax Americana” (ABŞ Sülhü) tətbiq edəcəyi düşüncəsini yaratdı. Həmin dövrün ABŞ prezidenti olan Corc H. Buşun (yəni, Ata Buş) 1990-cı ilin 11 sentyabrında konqresdə çıxışında istifadə etdiyi “Yeni dünya nizamı” ifadəsi də bu yöndə bir addım hesab oluna bilər. Buşun fikrincə, “Körfəz böhranı” təhlükəli olsa da, eyni zamanda əməkdaşlıq üçün də tarixi bir fürsət yaratdı. Prezident yeni dünya nizamında ABŞ-nin mövqeyindən bəhs etmiş və adı çəkilən dövrdə ABŞ liderliyinə bir alternativ olmadığını da vurğulamışdır. [18:s,115]

1991-ci ildə SSRİ dağılmış və yerinə Rusiya Federasiyası yaranmışdı. ABŞ-nin geosiyasi hədəfləri çərçivəsində bu dövlətin beynəlxalq sistemə inteqrasiyasına dair cəhdlər həyata keçirildi. Bu dövrdə ABŞ-nin yeni dünya nizamına dair hədəfləri və idealları “Böyük Amerikan Strategiyası” kimi adlandıra biləcəyimiz müddəalar əsasında yenidən qurulmuşdu. Bu müddəalar “sülh, çoxtərəflilik və rifah” idi. Yəni, ABŞ-nin xarici siyasətini beynəlxalq sülhü irəli çəkmək, liberal demokratiyaların inkişafını dəstəkləmək və bütün dünyada ortaq, qlobal dəyərləri yaymaq və ticarəti təşviq etməklə milli və beynəlxalq rifah əldə etmək təşkil edirdi. 1977-1981-ci illərdə ABŞ prezidenti Ceyms Karterin Milli Təhlükəsizlik üzrə müşaviri olan Zbiqnev Bezinskinin fikrincə, Soyuq müharibədən sonrakı dövrdə dövlətlərin qlobal gücünü müəyyənləşdirən 4 elementi nəzərə aldıqda, ABŞ üstün durumda idi. Birincisi, hərbi sahədə ən böyük

rəqibi olan SSRİ-nin süqutundan sonra, bu sahədə qlobal üstünlüyə malik idi. İkincisi, iqtisadi olaraq lider idi, üçüncü olaraq, texnologiyanın bütün sahədə yeniliklərin öncüllüyünü öz əlində saxlayırdı. Son olaraq isə, mədəniyyət sahəsində rəqibsiz bir cazibədarlığa sahib idi. Bütün bu sadalananlar ABŞ-yə siyasi bir nüfuz qazandırır. Müəllif qeyd edir ki, ABŞ bu xüsusiyyətlərini, bir sıra müəyyən təşkilatlarda fəal şəkildə iştirak edərək təmin edir. Məsələn, hərbi sahədə NATO, iqtisadi sahədə BVF və Dünya Bankı və s. [18:s,116]

ABŞ-nin hər nə qədər birbaşa olaraq ifadə edilməsə də, “Pax Americana” yaratma fikirlərinin Buşdan sonra hakimiyyətə gələn Bill Klintonun (1992-2000) dövründə açıq şəkildə tətbiq edildiyini görə bilərik. Bu anlayış xüsusilə liberal yanaşmalara və demokratik sülh nəzəriyyələrinə əsaslanırdı və Klintonun xarici siyasətində geniş istifadə olunmuşdur. Klintonun mili təhlükəsizlik müşaviri Antoni Leyk ABŞ-nin Soyuq müharibədən sonrakı hədəflərini açıqlayarkən qeyd etmişdi ki, ABŞ-nin yeni beynəlxalq sistemə cəlb olunmaqla yanaşı, həm də ona liderlik etməsini doğru hesab edir. Bu çərçivədə Klintonun dövrü də daxil olmaqla, ABŞ-nin “saxlama” siyasətindən (containment policy) “genişlənmə” siyasətinə keçdiyini görmək olar. Leykin fikrincə, bu siyasəti həyata keçirmək üçün bir sıra tədbirlərə ehtiyac vardı ki, bunlar mövcud demokratiyaların gücləndirilməsi, yeni demokratiyaların və liberal demokratiyanın təşviqi, demokratiya üçün təhlükə olan qüvvələrə qarşı münasibət və s. kimi amillər idi [18:s 116].

Prezident Klinton hakimiyyətinin uğurlu olması üçün vahid xarici siyasət yürütməli idi. Buna əsaslanaraq, beynəlxalq məsələlərə dair yeni yanaşma formalaşdırmağa diqqət yetirməyə başladı. Onun müşavirləri bu siyasəti “genişlənmə doktrinası” adlandırdı. Doktrinanın mahiyyəti bazar demokratiya birliyini genişləndirmək fikrinə əsaslanırdı. Bu ideaya azad ticarət, çoxtərəfli sülhməramlı fəaliyyətlər, beynəlxalq ittifaqlar və böhran vəziyyətlərinə müdaxilə etmə öhdəliyi kimi elementlər daxil idi. Adı çəkilən siyasət Birləşmiş Ştatların fəal rolunu önə çıxarmaq və təməl insan hüquqlarını qorumağı hədəfləyirdi. Bu məqsədlərə nail olmaq ABŞ-nin milli təhlükəsizliyinə xələl gətirmədən və milli

resurslarını bitirmədən həyata keçirilməli idi. Klintonun fikrincə ABŞ insan ləyaqəti və demokratiyanın təşviq edilməsində öz lider rolunu davam etdirməli idi. Bunu edərkən nə təcrid edilmiş şəkildə hərəkət etməli, nə də əhatə dairəsini həddən artıq genişləndirməli idi [25].

Əsas məqsədi iqtisadi sabitliyi və milli təhlükəsizliyi qorumaq olan Klinton adminstrasiyası Soyuq müharibədən sonrakı dövrdə Rusiyanı ya da Sovet roketlərini özü üçün hədə kimi görmürdü. Milli və beynəlxalq təhlükəsizliyə, beynəlxalq sülhə təhlükə kimi gördüyü əsas elementlərə Əfqanıstan və Tacikistandakı vətəndaş müharibəsi, Fələstindəki cihad, Livan ərazisindəki Həmas və Hizbullah kimi terror təşkilatları aid idi. Bu siyahıya bəzi dövlətləri, məsələn İran, İraq, Əfqanıstan, Liviya kimi "terroru dəstəkləyən quldur dövlətlər" olaraq gördüyü ölkələri də əlavə etmək olar [15:s,107].

Klinton hökuməti demokratik dövlətlərin daha sülhsevər siyasət izlədiyini qəbul edirdi. Onun fikrincə digər dövlətlər də demokratiya anlayışını qəbul edərdisə, onda beynəlxalq sülhü və təhlükəsizliyi təmin etmək daha da asanlaşacaqdı. ABŞ hökuməti dünya üzrə azad ticarətin inkişaf etdiriməsinə də diqqətlə yanaşırdı, çünki iqtisadi sabitliyi bu şəkildə təmin etmək olardı [15:s,107].

Xarici siyasət yanaşmasının əsas amilləri kimi azad bazar, demokratiya, insan haqları və KQS-lərin yayılmasının qarşısını almağı görürdü. Bu çərçivədə Klinton hökuməti 4 əsas xarici siyasət hədəfi müəyyən etmişdi ki, bunlar azad ticarət iqtisadiyyatını və demokratiyanı mənimsəyən ölkələrin yaranması, beynəlxalq terrorizmi çəkindirmək, ABŞ-nin milli təhlükəsizliyinə və beynəlxalq təhlükəsizliyə olan hədələri aradan qaldırmaq və yeni dünya ticarət və maliyyə sistemi təşkil etmək idi [15:s,107-108].

Bunun üçün Klinton hökuməti xarici siyasətlə bağlı bir sıra addımlar atdı. İlk olaraq, demokratiyanı dünya miqyasında yaymaq üçün demokratik hərəkatları dəstəkləməyə başladı. Daha sonra, beynəlxalq terrorizmlə mübarizə çərçivəsində terroru dəstəkləyən dövlətləri təcrid etməyə və bununla bağlı digər dövlətlərlə əməkdaşlığı artırmağa istiqamətləndi. Bir digər addım beynəlxalq təhlükəsizliyi

qorumaq üçün silahlara nəzarətlə bağlı səyləri artırmaq oldu. Son olaraq, dünyanın iqtisadiyyatının yenidən qurulması istiqamətində Dünya Ticarət Təşkilatının reallaşdırılması üçün əhəmiyyətli cəhdlər göstərdi [15:s,108].

Qeyd etdiyim kimi, ABŞ-nin geosiyasi məqsədlərindən biri də yeni yaranmış Rusiya Federasiyasını beynəlxalq sistemə inteqrasiya edilməsi, bu ölkədə demokratik dəyərlərin gücləndirilməsi idi. Bu amilə Klinton dövründə də diqqət göstərilmişdir. Genişlənmə strategiyasının əhəmiyyətli bir hissəsini təşkil edən bu siyasət "İlk olaraq, Rusiya" (Russia First) adlanırdı. Siyasətin mahiyyətini Rusiyanın siyasi və iqtisadi inkişafını dəstəkləmək və bu məqsədlə ölkənin Qərb dəyərləri və liberal demokratiya müddəaları çərçivəsində transformasiyası həyata keçirmək təşkil edirdi [18:s,117].

Prezident Klintonun Rusiya Federasiyası prezidenti Boris Yeltsin ilə ilk zirvə görüşü 1993-cü ilin aprelində Kanadanın Vankuver şəhərində baş tutdu. İki dövlət başçısı ölkələri arasında "demokratiya, təhlükəsizlik və sülhün təşviqi"nə dair əməkdaşlığın öhdəliklərini müəyyənləşdirən Vankuver bəyənnaməsini imzaladılar. Birləşmiş Ştatlar Rusiyaya 1.6 milyard dollarlıq əlavə yardım vəd etdi. Əhatə edilən sahələrə humanitar yardım, özəl sektoru inkişafı, ətraf mühitin qorunması, demokratiyanın təşviqi, nüvə silahlarının azaldılmasına yardım və başqaları aid idi. Liderlər 1993-cü ilin 14-15 aprel tarixlərində Tokyoda keçiriləcək G-7 Xarici İşlər və Maliyyə Nazirlərinin görüşündə Rusiyaya ediləcək beynəlxalq yardım haqqında əlavə müzakirələr etməyi planladılar [45].

ABŞ-nin bu "İlk olaraq, Rusiya" siyasəti Klintonun prezidentliyinin ilk iki ilində Rusiya tərəfindən də müsbət reaksiyalarla qarşılandı. 1993-cü ildən etibarən isə ikili münasibətlərdə müəyyən dəyişikliklər baş verdi. Rusiya prezidenti Boris Yeltsinin ABŞ ilə yaxın münasibətləri özünün siyasi müxaliflərini fəallaşdırdı. Onlardan biri xüsusilə, Aleksandr Rutskoy idi. Rutskoy keçmiş SSRİ zabiti idi və prezidenti ABŞ-nin siyasətinə kor-koranə tabe olmaqla günahlandırırdı. Bu dəyişikliklər 1993-cü ildə elan edilən "Xarici Siyasət Konsepsiyası Sənədi"ndə özünü göstərirdi. Sənədin mahiyyəti Rusiyanın artıq

milliyətçi xarici siyasət yürüdəcəyini göstərirdi. Sənəddə Rusiya "yaxın ərazi" adlandırdığı bölgədə əvvəllər olduğu kimi hakimiyyət quracağını və başqa qüvvələrin bu ərazidə fəallığının qarşısını alacağını qeyd edirdi [18:s,117-118].

Klinton və Yeltsin 1997-ci ilin mayında Parisdə NATO-Rusiya Qurucu aktını imzalamaq üçün görüşdü. Aktının preambulasında NATO və Rusiyanın artıq bir-birlərini düşmən olaraq hesab etmədikləri əks olunurdu. Qurucu akt ilə hər iki tərəf Avro-Atlantik regionunda demokratiya və təhlükəsizlik prinsiplərinə əsaslanan, davamlı sülhü birlikdə qurmağı öhdəsinə götürdü. NATO və Rusiya həmçinin qarşılıqlı maraq yaradan bir sıra məsələlər üzrə məsləhətləşmələr aparmaq və əməkdaşlıq etmək barədə razılığa gəldilər. Aktdan irəli gələn fəaliyyətləri və məqsədləri həyata keçirmək və Avropanın təhlükəsizliyinə dair ümumi yanaşmaları inkişaf etdirmək üçün Brüsseldə NATO-Rusiya Birgə Daimi Şurasını (NATO-Russia Permanent Joint Council) yaratdılar [45].

Prezident Yeltsin 1997-ci il iyunun 20-də Klintonla görüşdü. Bill Klinton Rusiyanın Paris klubuna qəbul olunacağını bəyan etdi. Bu klub borclu ölkələrin ödəmə çətiniklərinə davamlı həll yolu tapmaq üçün borclu və alacaqlı ölkələrin müzakirələr təşkil etmə məqsədiylə bir araya gəldikləri qeyri - rəsmi bir qurum idi. İlk dəfə bu müzakirələr 1956-cı ildə Argentinanın borcları ilə bağlı təşkil olunmuşdu. Bill Klinton Boris Yeltsini Strateji Silahların Azaldılmasına dair Müqavilə (START II - 1993) və Kimyəvi Silahlara dair Konvensiyasını ratifikasiya etməyə çağırdı. İyunun 21-də keçirilən görüşdən sonra ABŞ, Rusiya və Fransa prezidentləri BMT müfəttişləri İraqın KQS-ləri məhv etmək üçün əməkdaşlıq etdiyini göstərməsələr, bu ölkəyə qarşı sərt sanksiyalar tətbiq etməyə dair razılığa gəldilər [45].

Birləşmiş Ştatların qarşısındakı məsələlərdən biri də SSRİ-nin dağılmasından sonra "Varşava Paktı"nın Şərqi Avropadakı keçmiş üzvləri ilə əlaqələr idi. "Varşava Paktı" və ya "Varşava Müqaviləsi Təşkilatı" 1955-ci ildə yaradılan hərbi itifaq idi. İttifaqa SSRİ və Avropadakı sosialist bloku ölkələri daxil idi. Bu təşkilat üzv dövlətlər tərəfindən Varşava müqaviləsinin imzalanması əsasında yaradılmışdı və NATO-ya cavab reaksiası kimi hesab olunurdu. Paktın

mahiyyətini üzv dövlətlərdən birinə hücum olunacağı təqdirdə bütün üzv dövlətlərin ona qarşı hər cəhətdən dəstək vermək öhdəlikləri təşkil edirdi.

1993-cü ilin sonu 1994-ün əvvəllərində NATO-nun tərkibinə Mərkəzi və Şərqi Avropa dövlətlərinin qatılmasına dair danışıqlar başladı. 1994-cü ilin yanvarında NATO-nun Brüsseldə sessiyası keçirilir. Sessiyada təşkilatın genişlənməsinin önəmini vurğulayan müzakirələr aparılr və "Sülh Naminə Tərəfdaşlıq" (SNT) proqramı ilə bağlı qərar qəbul olunur. Proqramın mahiyyəti keçmiş Sovet ölkələri ilə hərbi sahədə əməkdaşlıq qurmaq və bu dövlətlərin təşkilata qəbul olmaq üçün hazırlıqlarını təmin etmək idi. Proqram NATO-ya "hazırlıq mərhələsi" kimi xarakterizə edilirdi. Alyansla əməkdaşlıq etmək istəyən ölkələr proqramın çərçivə sənədini imzalamalı idilər [1:s,124-126]. Bu dövlətlər demokratik prinsiplərə və insan hüquqlarına hörmətlə yanaşmalı, qanunun aliliyi və sərhədlərin toxunulmazlığı prinsiplərinə sadiq olduqlarını göstərməli idilər.

Brüsseldə qəbul olunan qərara Rusiyanın mövqeyi mənfi xarakterli olur və Alyansın Şərqə doğru genişlənməsinə razı olmadı. Bu etiraza baxmayaraq, ABŞ konqresi yanvarın 27-də qərar qəbul etdi ki, bu qərar Alyansın genişlənmə fikrini bəyənirdi. Bill Klinton çıxışlarının birində Alyansın genişləyəcəyini, Rusiyanın isə keçmiş SSRİ dövlətlərinin üzv olma istəyinə mane olma hüququnun olmadığını bəyan etdi [1:s,126].

90-cı illərin ikinci yarısından başlayaraq Vaşinqtonda NATO-ya üzv olmaq istəyən ölkələrlə fəal danışıqlar aparılır. 23 iyul 1996-cı ABŞ konqresi Alyansın genişlənməsi ilə bağlı 3364 saylı qətnamə qəbul edir. Qətnamənin əhatə etdiyi məsələlərə Polşa, Çexiya və Macarıstanın təşkilata qəbulu ilə bağlı 60 mln dollar kimi bir məbləğin ayrılması və Ukrayna, Moldova və Baltikyanı dövlətlərin isə təşkilata dəvət edilməsi aid idi. Qətnamə ilə bu məsələlər haqında qərar qəbul edildi. Bununla da ABŞ NATO-nun genişlənməsində nə qədər qətiyyətli olmasını və Rusiyanın buna heç bir şəkildə əngəl ola bilməyəcəyini göstərmiş oldu [ 1:s,126].

1997-ci ilin 8 iyul tarixində NATO-nun Madrid şəhərində keçirilən sammitində təşkilatın mövcud üzvlərindən başqa, Alyansa üzv olmaq istəyən dövlətlər və SNT proqramını imzalayan dövlətlər də iştirak edirdi. İki illik sınaq müddətindən sonra 3

dövlət - Polşa, Çexiya və Macarıstan rəsmən təşkilata üzv kimi dəvət edildilər. Bu üç dövlət Qərb dünyasına sadiq olmaları səbəbilə Vaşinqton tərəfindən xüsusi seçilmişdilər. Həmçinin görüş zamanı 1999-cu ildə keçiriləcək növbəti sammitdə Sloveniya və Ruminiya dövlətlərinin üzv kimi qəbul edilmələri məsələsinin müzakirə ediləcəyi də bildirilir. Madrid sammitində NATO-Ukrayna əlaqələrini müəyyənləşdirən xartiya imzalandı [ 1:s,128].

1999-cu ilin martında rəsmi prossedurlar tamamlandıqdan sonra Polşa, Çexiya və Macarıstan təşkilata üzv oldular. Aprel ayında ABŞ-nin paytaxtı Vaşinqtonda NATO-nun yubiley sessiyası keçirilir. Sessiyada daha 8 dövlət – Belarus, Albaniya, Latviya, Litva, Estoniya, Slovakiya, Ruminiya və Makedoniya üzvlük üçün namizədliklərini elan etdilər [ 1:s,129].

1991-2000-ci illərdə ABŞ Cənubi Qafqaz regionuna da önəm verməyə başladı. ABŞ üçün bu regionun prioritet kimi görülməsi müxtəlif hərbi-siyasi maraqlara və Xəzər hövzəsində ABŞ-nin mövqeyinin gücləndirilməsinə əsaslanırdı.

Sovet İttifaqının dağılmasından sonra ABŞ Cənubi Qafqazda fəal xarici siyasət yeritməyə başladı və regionda özünün hərbi, siyasi və iqtisadi maraqlarını təmin etmək üçün fürsət qazandı. Bu dövrdə ABŞ-nin Cənubi Qafqaz siyasəti əsasən yeni müstəqillik qazanmış bu respublikalarda cari vəziyyətlə tanış olmaq və onların potensiallarını təhlil etməkdən ibarət idi [ 2:s,174].

1991-1994-cü illərdə ABŞ bu regiona əsasən Rusiyanın təsir dairəsi kimi baxır və öz maraqlarına hədə olmadığı halda qarışmamağa üstünlük verirdi.1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanmasından sonra isə Cənubi Qafqazda hərbi-siyasi və iqtisadi maraqlarını gücləndirmə kursunu yeritməyə başladı [ 2:s,174].

ABŞ-Azərbaycan münasibətlərindəki irəliləyişlərə baxmayaraq, erməni lobbisinin aktiv fəaliyyəti iki ölkə arasındakı əlaqələrə təsirsiz ötüşməmişdi. Belə ki, 1992-ci ilin oktyabr ayında ABŞ Konqresi "Azadlığı Müdafiə Aktı" adlı qanun qəbul etdi. Qanunun mahiyyətini keçmiş SSRİ respublikalarına dövlət yardımını tənzimləmək təşkil edirdi. Qanunun 907-ci bəndinə edilən düzəliş ABŞ-nin Azərbaycanın rəsmi strukturlarına yardımını qadağan edirdi. Düzəlişin

qəbul olunmasına erməni lobbisinin birtərəfli və yalan məlumatlarının böyük təsir olmuşdu. Bu məlumatlara əsaslanaraq, ABŞ konqresmenləri Azərbaycan Respublikasını Ermənistanı guya mühasirədə saxlamaq və Dağlıq Qarabağdakı ermənilərə qarşı zorakılıqla ittiham etmiş və bu düzəlişin qəbuluna qərar vermişdilər. Qanun 1993-cü ilin yanvar ayında qüvvəyə mindi.

Cənubi Qafqaz respublikaları, xüsusilə də Azərbaycan və Gürcüstan hələ 90-cı illərin əvvəllərindən NATO ilə əməkdaşlığa önəm versələr də, qeyd edilən respublikalarda həmin dövrdə mövcud olan hakimiyyətlərin xarici siyasət kursları NATO ilə əlaqələrin inkişaf etməsi üçün əlverişli deyildi. Gürcüstanda Eduard Şevardnadze, Azərbaycanda isə Heydər Əliyev hökumətinin qurulması ABŞ ilə münasibətlərdə yeni mərhələyə gətirib çıxardı. Belə ki, 1994-cü ildə Azərbaycan, Gürcüstan və Ermənistanın NATO-nun "Sülh Naminə tərəfdaşlıq" proqramına qoşulması ABŞ ilə hərbi sahədə əməkdaşlıq üçün yeni imkanlar yaratdı [ 2:s,175].

1993-cü ildə Heydər Əliyevin hakimiyyətə gəlməsi və 1994-cü ilin sentyabrında " Əsrin müqaviləsi"nin imzalanmasından sonra ABŞ-də 907-ci düzəlişə qarşı fikirlər dəyişməyə başladı. 1996-cı ildə Konqresi qəbul etdiyi və konqresmen Uilsonun adı ilə bağlı olan "Uilson" düzəlişi prezidentə yeni səlahiyyət verdi. Bu düzəlişə əsasən, qeyri-hökumət təşkilatları səviyyəsində Azərbaycan Respublikasına edilən yardım kifayət etməzdisə, prezident birbaşa yardım göstərmə səlahiyyətinə malik idi.

1997-ci ilin yay aylarında ABŞ-yə ilk rəsmi səfərini edən prezident Heydər Əliyev Bill Klinton və Konqres üzvləri ilə sözügedən düzəlişin ləğvinin əhəmiyyəti haqqında danışmışdır. ABŞ prezidenti isə, əvvəlcə Azərbaycana yardımların təmin olunacağını, ardınca isə, düzəlişin tam ləğv ediləcəyini bildirmişdir. Birləşmiş Ştatlardakı erməni icması və lobbisinin müqaviməti ilə əlaqədar, düzəliş tam ləğv olunmasa da, 1997-2000-ci illər ərzində ABŞ Azərbaycana müəyyən yardım göstərdi. Sözügedən illər ərzində Klinton hökuməti düzəlişin tam ləğv üçün bəzi cəhdlər də göstərmişdi.

ABŞ-nin Cənubi Qafqazdakı hərbi-siyasi maraqlarına regionda İran və Rusiyanın təsirinin güclənməsinin qarşısını almaq da daxil idi. Bunun əsas səbəbi

isə bu iki ölkənin regiona ABŞ da daxil olmaqla Qərb dövlətlərinin regionda fəaliyyət göstərmələrinə mane olmağa çalışmaları idi.Qeyd edək ki, ABŞ eyni siyasəti Türkiyəyə qarşı yeritmirdi. Səbəb isə, Türkiyənin NATO üzvü olması və regionda ABŞ-nin ən yaxın müttəfiqi olması idi [ 2:s,178].

2000-ci ildə seçkilərdə qalib gələn Corc U. Buş 2002-ci ilin yanvar ayında 907-ci düzəlişin müvəqqəti olaraq dondurulması haqqında qərar verdi. Buna təkan verən əsas səbəb isə, 11 sentyabr hücumlarından sonra respublikamızın ABŞ-yə qarşı göstərdiyi anti-terror həmrəyliyi olmuşdur. Azərbaycan hökuməti Əfqanıstan əməliyyatları zamanı ABŞ təyyarələrinə öz hava məkanından istifadə üçün şərait yaratdı. Bu da öz növbəsində, iki ölkə arasında hərbi əməkdaşlığın təkmilləşdirilməsinə şərait yaratdı.

Bill Klinton hökumətinin səkkiz illik hakimiyyəti dövründə Rusiyaya münasibətdə atdığı addımlardan biri də Baltikyanı ölkələrdən rus qoşunlarının çıxarılmasına dair aparılan danışıqlar idi. Rus qoşunları Balkan yarımadasındakı NATO missiyalarına cəlb olundu və Kosovo müharibəsinin yekunlaşmasında bu ölkə fəal iştirakını göstərdi. Rusiya G-8, Asiya-Sakit Okean İqtisadi Əməkdaşlıq Forumu (APEC), NATO və beynəlxalq maliyyə təşkilatları ilə əlaqələrə cəlb olundu. Nüvə təhlükəsi azaldı və son olaraq, iqtisadi islahatlara və bazar iqtisadiyyatının yaradılmasına dəstək göstərildi.

Klinton adminstrasiyası Soyuq müharibədən sonra NATO-nu canlandırdı, yeni üzvlər hesabına genişləndirdi və yeni dövrə uyğunlaşdırdı. Macarıstan, Polşa və Çexiya təşkilatın sıralarına qəbul edildi. 1994-cü ilin yanvarında NATO-nun Brüsseldə keçirilən zirvə görüşündə SNT roqramının əsası qoyuldu [27]. Proqramın məqsədi NATO və Şərq ölkələrinin əməkdaşlığını təmin etmək və Alyansa yeni, demokratik dövlətlər cəlb etmək idi.

1990-cı illər Amerika Birləşmiş Ştatları üçün fəal xarici siyasət dövründən əlavə, həm də sülh və çiçəklənmə dövrü kimi də nəzərdən keçirilə bilər. Belə ki, 1992-1999cu illər ərzində ABŞ iqtisadiyyatı illik ortalama 4 faiz artım göstərdi. 1992-ci ildə 8% ola işsizlik göstəricisi onilliyin sonlarında 4%-ə düşdü. Bunun da

əsas səbəbi ildə təxmini 1.7 milyon iş yerinin açılması ilə əlaqədar idi. 1993-2000-ci illərdə ABŞ iqtisadiyyatı son 30 illə müqayisədə özünün ən yaxşı dövrünü yaşadı.

## 1.2. 11 sentyabr terrorunun ABŞ-nin xarici siyasətinə təsiri

Bill Klintondan sonra hakimiyyətə sabiq prezident Corc H. Buşun oğlu, respublikaçı Corc Uoker Buş gəldi. 7 noyabr 2000-ci il tarixində keçirilən prezident seçkiləri qalmaqallı xüsusiyyəti ilə də yadda qalmışdır. Seçkilərdə Respublikaçılar partiyasının nümayəndəsi qeyd etdiyim kimi, Corc U. Buş, Demokratların namizədi isə, 8 il müddətində Klintonun vitse-prezidenti olmuş Al Qor idi. Ölkənin kütləvi informasiya vasitələri Qoru qalib elan etsələr də, sonradan Corc U. Buşun sadəcə 537 səs fərqi ilə yeni prezident olduğu açıqlandı. Növbəti 3 gün ərzində isə, (yəni,10 noyabra qədər) bu fərq 327-yə düşdü. Nəticə olaraq, 5 həftə davam edən proseslərdən sonra, 6 yanvar 2001-ci il tarixində ABŞ-nin 43-cü prezidenti Corc U. Buş elan edildi. 20 yanvar 2001-ci il tarixində andiçmə mərasimindən sonra yeni prezident öz səlahiyyətlərinin icrasına başladı.

11 sentyabr 2001-ci il tarixində Nyu-Yorkda yerləşən Dünya Ticarət Mərkəzinin Əkiz qüllələri iki təyyarə tərəfindən hücuma məruz qaldı. Terrorçular tərəfindən ələ keçirilən və Amerikan Hava Yollarına aid Boinq 767 təyyarəsi yerli vaxtla saat 08:48 radələrində Ticarət Mərkəzinin Şimal qülləsinə, təxminən 17 dəqiqə sonra, ikinci bir Boinq 767 isə Cənub qülləsinə çırpıldı. Əkiz qüllələrdə minlərlə insan işləyirdi. Üçüncü hücum isə 09:40 radələrində Boinq 757 təyyarəsinin Pentaqonun qərb hissəsinə çırpılması ilə baş tutdu [18:s,4]. Terrorçuların ələ keçirdiyi dördüncü təyyarə isə Nyu-Cersidən San-Fransiskoya istiqamətlənən və "United Airlines"ə məxsus sərnişin təyyarəsi idi. Təyyarə havalandıqdan qısa bir müddət sonra Pensilvaniya ştatı daxilində boş bir əraziyə düşdü [23]. Təyyarənin ABŞ hava qüvvələri tərəfindən vurulması ehtimalı da istisna edilmir. Dördüncü təyyarənin hədəfi isə Ağ Ev idi [18:s,4].

İkinci Dünya Müharibəsi illərində yaponlar tərəfindən təşkil olunan Perl-Harber hücumundan sonra, ABŞ ilk dəfə öz torpaqlarında hücuma məruz qalırdı.

Hadisədən sonra ABŞ-nin hava yolları şirkətlərində əsgərlər növbə çəkməyə başladı. Limanlara gələn gəmilər bütün xırdalıqlarına qədər axtarıldı. Təhlükəli maddələr daşıyan yük maşınları peyk vasitəsilə izlənməsi tətbiq edildi. Qısacası, hücumlardan sonra ölkədə müharibə vəziyyəti yaşanmağa başladı. Ölkə ərazisində bütün hava hücumundan müdafiə sistəmləri hazır vəziyyətə gətirildi və ABŞ-nin dünyadakı bütün bazaları və qüvvələri müharibə vəziyyətinə keçdi. Prezident Buş paytaxt Vaşinqtona girə bilmədi və bir hərbi bazada mühafizəyə alındı [18:s,5].

11 sentyabr hadisələri ABŞ-nin və dünyanın gündəmini dəyişdirdi. Müharibə, hədə və hücum kimi anlayışların mahiyyətlərinin yenidən müəyyənləşdirilməsinə ehtiyac yarandı. Hücumlardan sonra ABŞ və Avropa bu hücumu ortaq dəyərlərə edilmiş kimi qiymətləndirdi və ortaq bir hədə haqqında danışmağa başladılar. Bu minvalla ABŞ bütün beynəlxalq ictimaiyyəti hərəkətə keçirmək üçün bir əsas tapa bildi. Əlavə olaraq da, dünya Əl-Qaidə təşkilatını yox etmək üçün ABŞ-a dəstək verməyə başladı [18:s,6].

Hadisəyə dünyanın reaksiyasına nəzər salsaq, görə bilərik ki, İraqdan başqa bütün ölkələr, hətta Birləşmiş Ştatların diplomatik əlaqələri olmayan ölkələr belə ABŞ-yə dəstək mesajları verdilər. İraqdan verilən açıqlamada isə “Amerikan kovboyları bəşəriyyətə qarşı həyata keçirdikləri cinayətlərin bəhrəsini toplayır” şəklində oldu. Fələstin hökuməti, Əfqanıstan və İran da hücumların sonrasında həmrəylik mesajları verdilər [23].

NATO-nun müddəalarından olan və bir üzvə həyata keçirilən hücumun bütün üzvlərə qarşı edilmiş hesab olunmasından bəhs edən beşinci maddəsi ilk dəfə qüvvəyə mindi. BMT Təhlükəsizlik Şurası isə, hücumları pislədi və “terrorla mübarizədə” hər cür hərbi addımı atmağa hazır olduqlarını bildirdi [23].

Konqres də öz növbəsində prezidentə Əfqanıstana qarşı güc istifadəsinə icazə verdi [18:s,6]. 18 sentyabr 2001-ci ildə Buş Konqresin prezidentə “bütün lazımı və uyğun” qüvvələrdən istifadə etməyə dair səlahiyyət verən birgə qətnaməsini imzaladı. Bu qüvvə istifadəsi “hücumu planlayan, səlahiyyət verən, törədən və ya kömək edən” hər kəsə qarşı nəzərdə tutulmuşdu. Buş hökuməti Hərbi Qüvvələrin istifadəsinə dair səlahiyyətdən (yəni, AUMF) əvvəlcə Əl-Qaidə və onun

Əfqanıstandakı Taliban sponsorlarını izləmək üçün istifadə edir. Sonradan isə, sənədin əhatə dairəsini bütün dünyada Əl-Qaidə ilə əlaqəli "istənilən" qüvvələri əhatə edəcək şəkildə genişləndirir. Nəticə olaraq, AUMF ABŞ-nin Yaxın Şərq, Cənubi Asiya və Afrikanın ən az 14 ölkəsini əhatə edən hərbi əməliyyatları üçün əsasa çevrilir [28].

Amerika Birləşmiş Ştatları hücumlardan Əl-Qaidə təşkilatını və onun lideri Usama Bin Ladeni günahlandırdı. Bin Laden 10 mart 1957-ci il tarixində Səudiyyə Ərəbistanının paytaxtı Riyad şəhərində dünyaya gəlmişdi. Atası Məhəmməd Bin Laden Səudiyyə Ərəbistanında kral ailəsindən sonra ən varlı insan hesab olunurdu və özünə aid olan "Bin Laden Qrupu" şirkəti var idi. 10 yaşında atasını itirən Usama 1976-1981-ci illərdə Ciddə Universitetində bakalavr və magistr təhsili almış, bu dövrdə dostları tərəfindən dindar biri kimi təsvir edilmişdir. Təhsil aldığı dövrdə universitetin akademik heyətindn olan Abdullah Azzamın fikirləri bin Ladendə dərin təsir buraxmışdı [22].

Bin Laden Əl-Qaidə terror təşkilatının banilərindən biri və lideri hesab olunur. Ərəb dilindən tərcümədə "baza" mənasına gələn bu təşkilat 1980-ci illərdə yaradılmış islamçı bir təşkilat idi. Bu təşkilat Əfqanıstanda Sovet İttifaqına qarşı döyüşən müsəlmanların şəbəkəsi kimi yaradılmışdı. 1989-cu ildə Sovet qoşunlarının Əfqanıstandan çəkilməsi ilə bu şəbəkə dağıldı, lakin korrupsiyoner İslam rejimlərinə və İslam torpaqlarında xarici qüvvələrin mövcudluğuna (məsələn, ABŞ) qarşı çıxmağa davam etdi. 1990-cı illərin əvvəllərində bir müddət Sudanda məskunlaşan qrup 1996-cı ildə əfqan milislərinin dəstəyi ilə bu ölkədəki qərargahını bərpa etdi [24].

20 sentyabr 2001 tarixində Konqresin birgə iclası zamanı çıxışında prezident terrora qarşı qlobal müharibəni necə təsvir etdiyini qısa şəkildə bildirir və Birləşmiş Ştatları gələcək hücumlardan qorumaq üçün "Vətənin Təhlükəsizliyi İdarəsi"nin (Office of Homeland Security) yaradıldığını elan edir. O, Əfqanıstandakı Taliban hökumətindən Bin Laden də daxil olmaqla, öz ərazisindəki bütün Əl-Qaidə üzvlərini təslim etməyi tələb edir və dünyaya "ya bizimləsiniz, ya da terrorçuların yanında" deyə xəbərdarlıq edir [28]. Buş Talibandan Əl-Qaidə

üzvlərinə sığınacaq verməyi dayandırmağı tələb edir və terrorizmin kökü kəsilənə qədər qlobal terrorizmlə müharibənin sona çatmayacağını bildirir. Prezident vurğulayır ki, "Bizim terrorla müharibəmiz Əl-Qaidə ilə başlayır, lakin bununla da bitmir. Qlobal miqyasda olan hər bir terror qruplaşması tapılmayana, dayandırılmayana və məğlub edilməyənə qədər də bitməyəcək" [29].

11 sentyabr hücumlarından sonra Amerika Birləşmiş Ştatlarının beynəlxalq terrorizmə olan reaksiyalarını 3 dövrə bölərək nəzərdən keçirmək olar. Birinci dövr 2001-2006-cı illəri əhatə edir. Bu dövrdə prezident Buş terrorizmə qarşı müharibə elan etmiş və bütün dünyaya ya onun yanında, ya da qarşısında olduqlarını açıqca ifadə etmişdi. Növbəti dövr İraqın işğalından sonrakı müddəti əhatə edir. Bu dövr Birləşmiş Ştatlar terrorla mübarizədə əməkdaşlıq və müttəfiqlik axtarışında olduğu dövrdür. Nəhayət, son dövr Obamanın hakimiyyət illərinin bir hissəsini əhatə edir. Belə ki, ABŞ adminstrasiyası terrorla mübarizəni təkbaşına apara bilməyəcəyini və beynəlxalq əməkdaşlığa ehtiyac olduğunu bildirmişdi [11: s,62].

ABŞ-nin beynəlxalq terrorizmlə müharibəyə ilk başladığı yer Əfqanıstan oldu. NATO müqavilənin beşinci maddəsinə görə, 11 sentyabr hadisələri bütün üzv dövlətlərə qarşı edilmiş kimi qəbul edərək ABŞ liderliyi ilə Əfqanıstan əməliyyatını başlatdı. Beləliklə, Əfqanıstana müdaxilə beynəlxalq terrorizmlə mübarizəni NATO-nun bir missiyası halına gətirdi. Əməliyyat "Davamlı Sülh Əməliyyatı" (Operation Enduring Freedom) adlanır və həm Əfqanıstan, həm də Taliban rejimini aradan qaldırmağa istiqamətlənmişdi. Məqsədi burada mövcud olan rejimi dəyişdirmək olan əməliyyat strateji cəhətdən baxıldıqda, ABŞ üçün enerji ilə zəngin olan Yaxın Şərq regionunda daimi bir mövqe yaratmaq fürsəti gətirdi [17:s,153].

7 oktyabr 2001-ci il tarixində ABŞ ordusu Böyük Britaniyanın dəstəyi ilə Talibana qarşı hərbi əməliyyatlara başlayır [41]. Bununla da "Davamlı Azadlıq Əməliyyatı" rəsmi olaraq başlamış hesab olunur. Kanada, Avstraliya, Almaniya və Fransa kimi dövlətlər gələcək dəstək üçün vəd verdilər. Müharibənin ilkin mərhələsi, əsasən, ABŞ hava qüvvələrinin Əl-Qaidə və Talibana zərbələr endirməsi ilə xarakterizə olunur. Bu istiqamətdə ABŞ-yə Şimal Alyansı və puştun

mənşəli anti-Taliban qüvvələri də kömək göstərdilər. Ümumi quru qoşunlarının ilk dalğası isə əraziyə təxmini 12 gün sonra gəlib çatır. Quru döyüşləri, əsasən, Taliban və onun əfqan müxalifləri arasında gedirdi [41]. 2001-ci ilin oktyabr ayında Qəndəharda Talibana təzyiq etmək üçün təxminən 1300 dəniz piyadası yerləşdirildi [32:s,7].

26 oktyabr 2001-ci ildə Buş hökuməti "Vətənpərvərlik Aktı" (Patriot Act) adlanan qanunverici akt imzalayır [3]. Sənədin məqsədi terrorla mübarizədə federal hökuməti gücləndirmək idi. Geniş əhatəli bu qanun layihəsinə bir sıra müddəalar daxil idi: hüquq - mühafizə orqanları və kəşfiyyat orqanları arasında əməkdaşlığı gücləndirmək, terrorizmin maliyyələşdirilməsi ilə mübarizə aparmaq üçün bank qaydalarını gücləndirmək, terror fəaliyyətlərinə görə yeni cəzalar tətbiq etmək və daxili nəzarəti kəskin şəkildə gücləndirmək. Tənqidçilərin fikrincə qanun çox geniş idi və tələsik qəbul edilmişdi. Sonradan mətbuatın hesabatları ortaya çıxardı ki, Milli Təhlükəsizlik Agentliyi bu aktın verdiyi səlahiyyətlərə əsaslanaraq, amerikalıların telefon danışıqlarını kütləvi şəkildə qeydə alır. Bu isə konqresi daxili nəzarətə yeni məhdudiyyətlər formalaşdırmağa sövq edirdi [3].

Taliban rejimi 9 noyabr 2001-ci ildə Məzari-Şərifdə özbək əsilli hərbi lider Əbdül Rəşid Dostumun rəhbərlik etdiyi qüvvələrə məğlub olduqdan sonra dağılmağa başlayır. Növbəti həftə ərzində koalisiya və Şimal Alyansının 11 noyabrda Taloqan və Bamiyana,12 noyabrda Herata,13 noyabrda Kabil və 14 noyabrda Cəlalabada hücumlarından sonra Talibanın dayaqları dağılır. 14 noyabr 2001-ci ildə BMT Təhlükəsizlik Şurası 1378 saylı qətnamə qəbul etdi [41]. Qətnamə ilə BMT müvəqqəti hökumətin yaradılmasında , ərazidə sabitliyin yaradılması və yardımların çatdırılması üçün üzv dövlətləri sülhməramlı qüvvələr göndərməyə təşviq etmək üçün "mərkəzi rol"a dəvət edilirdi [41].

2001-ci ilin dekabrında Əl-Qaidə lideri Bin Ladeni Kabilin cənub-şərqindəki Tora Bora mağarasına qədər izləyən Əfqan milisləri Əl-Qaidə silahlıları ilə iki həftəlik döyüşə girirlər. Döyüşlər dekabrın 3-dən 17-nə qədər çəkir və dekabrın 16-da Bin Ladenin qaçması ilə nəticələnir [41]. Döyüşlər zamanı yüzlərlə insan həyatını itirir. Dekabrın 17-də isə Bin Ladenin qalan 20 adamı ələ keçirilir.

Kəşfiyyat məlumatlarının bin Ladenin Tora Borada olduğunu göstərməsinə baxmayaraq, ABŞ qüvvələri əfqan kontingentinin həyata keçirdiyi hücuma rəhbərlik etmir [41].

2001-ci ildə Kabilin süqutundan sonra BMT əsas əfqan qruplarını, xüsusilə də Şimal Alyansını və keçmiş kralın rəhbərlik etdiyi qrupu Almaniyanın Bonn şəhərində təşkil ediləcək konfransa dəvət edir. 5 dekabr tarixində bu qruplar Bonn sazişini imzalayırlar. Saziş BMT TŞ-nın 1383 saylı qətnaməsi ilə təsdiq edilmişdi [41]. Razılaşmaya görə, Həmid Kərzai müvəqqəti hökumətin başçısı təyin olunur. Kabildə təhlükəsizliyi qorumaq üçün sülhməramlı qüvvələr yaradılır. Dekabrın 20-də BMT TŞ 1386 saylı qətnaməni qəbul edir ki, bu sənəd Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələrinin, yəni ISAF-ın (International Security Assistance Force) əsasını qoyur [41].

29 yanvar 2002-ci il tarixli illik çıxışında (State of the Union) prezident Buş Əfqanıstanın müvəqqəti lideri H. Kərzaini səmimi şəkildə qarşılayır və xəbərdarlıq edir ki, "bizim terrorla mübarizəmiz sadəcə başlanğıcdır" [3]. Bu onun 11 sentyabr hadisələrindən sonrakı ilk illik çıxışı idi. Prezident ABŞ-nin Filippində, Somalidə və başqa yerlərdə yerləşdirilən hərbi bazalarını vurğulayaraq, rəsmi Vaşinqtonun düyanın istənilən yerində "qanunsuz rejimlər"ə qarşı çıxacağını bildirir. Buş Şimali Koreya, İraq və İranı qeyd edərək, bu üç ölkəni "şər oxu" adlandırır [3].

Prezident nitqində "Bizim ikinci məqsədimiz terroru himayə edən rejimlərin ABŞ, onun dostları və müttəfiqlərini kütləvi qırğın silahları ilə hədələməsinin qarşısını almaqdır. Bu rejimlərdən bəziləri 11 sentyabrdan bəri kifayət qədər səssizdirlər, amma biz onların əsl xislətlərini bilirik. Şimali Koreya öz xalqını ac saxladığı halda, raketlər və kütləvi qırğın silahları ilə silahlanan bir rejimdir" [40].

"İran aqressiv şəkildə bu silahlarla məşğul olur və dünyaya terror yayır, seçilməmiş bir neçə nəfər isə İran xalqının azadlıq ümidlərini boğur [40].

"İraq ABŞ-yə qarşı düşmənçiliyini göstərməyə və terroru dəstəkləməyə davam edir. İraqdakı rejim 10 ildən çoxdur ki, qarayara xəstəliyi, sinir qazı və nüvə silahı hazırlama planları qurur. Bu rejim öz vətəndaşlarını öldürmək üçün zəhərli

qazdan istifadə edən rejimdir. Bu elə bir rejimdir ki, beynəlxalq yoxlamalarla razılaşıb, sonra isə müfəttişləri qovub. Bu, sivil dünyadan gizlədəcək nəyisə olan bir rejimdir" [40].

"Belə dövlətlər və onların terrorist müttəfiqləri dünyanı hədələmək üçün silahlanaraq "şər oxu" yaradırlar. KQS axtarışında olan bu rejimlər vahiməli və getdikcə artan bir təhlükə təşkil edirlər. Onlar terroristləri bu silahlarla təmin edə, onlara nifrətlərinə uyğun gələn vasitələr verə bilərdilər. Onlar müttəfiqlərimizə hücum edə, ya da ABŞ-ni şantaj etməyə cəhd edə bilərdilər. Bu halların hansısa birinə laqeyd yanaşmaq fəlakətlə nəticələnə bilərdi" [40].

Tənqidçilərin fikrincə, onun bu çıxışı diplomatik səylərə xələl gətirir. Bəzi analitiklər isə iddia edirlər ki, bu, İranın Əfqanıstanda ABŞ ilə başlayan yeni əməkdaşlığını zədələyir. Həmçinin , Buşun bu fikirləri Şimali Koreyanın 2003-cü ildə Nüvə Silahlarının Yayılmamasına dair Müqavilədən çıxmasına da təkan verdi [3].

2002-ci mart ayında "Anakonda" əməliyyatı başladıldı. Bu əməliyyat Tora Bora döyüşündən sonra ilk böyük quru hücumu və ən böyük əməliyyat hesab olunur. Anakonda əməliyyatı Qardez şəhərinin Şah-i Kot adlanan düzənliyində təxmini sayları 800 olan Əl-Qaidə və Taliban döyüşçülərinə qarşı həyata keçirlidi. Döyüşdə iki minə yaxın amerikan və minə yaxın əfqan əsgəri iştirak etdi [41]. Əməliyyatın miqyasının böyük olmasına baxmayaraq, o, müharibə ilə bağlı səylərin artması mənasına gəlmirdi. Əksinə, Pentaqondakı planlayıcılar hərbi və kəşfiyyat resurslarını Əfqanıstdandan Səddam Hüseynin başçılıq etdiyi İraqa doğru istiqamətləndirməyə başladılar. Bu dövlət terrorla mübarizədə ABŞ üçün başlıca hədə hesab olunurdu [41].

17 aprel 2002-ci ildə Corc Buş "Virciniya Hərbi İnstitutu"nda çıxışı zamanı Əfqanıstanın yenidən qurulması ilə bağlı çağırış edir. O, qeyd edir ki, "Biz şər qüvvələrdən azad və yaşamaq üçün daha yaxşı bir yer olacaq Əfqanıstanın qurulmasına kömək edərək, Corc Marşalın ən yaxşı ənənələri ilə fəaliyyət göstəririk" [41]. Bunları deyərkən prezident İkinci Dünya Müharibəsi sonrasında Qərbi Avropanı yenidən dirçəldən Marşal planını xatırladır. Buna baxmayaraq, Birləşmiş

Ştatlar və beynəlxalq ictimaiyyət Əfqanıstan üçün Marşal planına bənzər yenidənqurma xərclərinə yaxın gəlmir. Qeyd edək ki, ABŞ konqresi 2001-2009-cu illər ərzində Əfqanıstana yenidənqurma və humanitar yardım çərçivəsində 38 milyard dollardan çox bir vəsait ayırmışdır [41].

12 sentyabr 2002-ci il tarixində BMT Baş Assambleyası qarşısında nitqində prezident Səddam Hüseyn hökumətinə ultimatum verir, və onu "ciddi və artmağa davam edən" təhlükə adlandırır. O, İraqı BMT TŞ-nın 1991-ci ilə aid bir sıra qətnamələrinin, həmçinin bütün KQS-ləri məhv etmək və silahlara nəzarət müfəttişlərinin obyektlərə maneəsiz girişinə icazə verməklə bağlı öhdəliklərini pozmaqda ittiham edir. Prezident qeyd edir ki, İraq terror təşkilatlarına dəstək olmaqdan əl çəkmir. Onlara Əl-Qaidə də daxildir. ABŞ kəşfiyyatı bu təşkilatın üzvlərinin İraqda olmasından şübhələnir. Corc U. Buş Bağdadın kimyəvi, bioloji və nüvə silahlarını inkişaf etdirdiyini və bunların terrorçulara ötürülə biləcəyi ilə bağlı xəbərdarlıq edir. O, qeyd edir ki, ABŞ-nin bir çox müttəfiqləri isə, buna qarşı çıxır, lazım gələrsə, ABŞ-nin təkbaşına da hərəkət edə biləcəyini vurğulayır [3].

19 mart 2003-cü ildə ABŞ əksəriyyəti Birləşmiş Krallıqdan olan koalisiya qüvvələri ilə birlikdə İraqa qarşı müharibə başlatdı. İraqın paytaxtı Bağdadda ilk partlayışlardan dərhal sonra, Corc U. Buş televiziyada yayımlanan proqramda deyir: "Bu saatda Amerika və koalisiya qüvvələri İraqı tərksilah etmək, əhalisini azad etmək və dünyanı vahiməli bir təhlükədən müdafiə etmək üçün həyata keçirilən hərbi əməliyyatların ilkin mərhələsindədirlər". Prezident Buş və onun müşavirləri Səddam Hüseyn diktatorluğundakı İraqa qarşı müharibə iddialarını bu ölkənin KQS-na malik olması və ya onların istehsalı prosesində olması üzərində qurdu [43].

Müharibə vəziyyəti ABŞ-nin S. Hüseynə ya İraqı tərk etməsi, ya da müharibə ilə üzləşməsi üçün verdiyi vaxtın bitməsindən 90 dəqiqə sonra başladı. İlk hədəflər ABŞ qırıcı-bombardmançı təyyarələrindən və Fars körfəzində yerləşdirilən döyüş gəmilərindən atılan Tomahavk qanadlı raketləri ilə vuruldu. Prezidentin sözünə görə, bu hədəflər "hərbi əhəmiyyətli" hədəflər idi. Hücuma

cavab olaraq, Bağdad radiosu “Allahın, vətənin və bəşəriyyətin düşməni olan şeytanlar vətənimizə və xalqımıza qarşı təcavüz etməklə, axmaqlıq törətmişlər” deyə elan etdi [43].

Koalisiya qüvvələri cəmi üç həftə ərzində Səddam rejimini devirə və İraqın böyük şəhərlərini ələ keçirə bildilər. Mayın 1-də prezident Corc U. Buş əsas hərbi əməliyyatların başa çatdığını elan etdi. İraq hərbi qüvvələrinin məğlub olmasına baxmayaraq, hərbi qələbənin elan edilməsindən sonra partizan müharibələri şəklində üsyanlar davam etdi. Nəticədə minlərlə mülki əhali və üsyançı həyatını itirdi [43].

Uzun axtarışlardan sonra ABŞ əsgərləri S. Hüseyni doğma şəhəri Tilkitdən təxmini 14 km uzaqda bir çuxurun içində gizlənərkən tapdılar. Çuxurun dərinliyi 1.5-2.5 metr aralığında təşkil edirdi. O, tutularkən heç bir müqavimət göstərmədi. Hüseyn 2005-ci ilin oktyabrda həbs edildi və kütləvi qətllər də daxil olmaqla, xalqına qarşı cinayətlərdən mühakimə olunmağa başladı.2004-cü ilin iyununda hakimiyyət İraq Müvəqqəti Hökumətinə verildi. 2005-ci ilin yanvarında İraq xaqı 275 nəfərdən ibarət İraq Milli Məclisini seçdi. Oktyabrda ölkənin yeni konstitusiyası ratifikasiya edildi. 6 noyabr 2006-cı ildə Səddam Hüseyn insanlığa qarşı cinayətlər ilə günahlandırıldı və ölüm cəzasına məhkum edildi. Dekabrın 30-da isə asılaraq edam edildi [43].

Əfqanıstanda isə, Kərzainin rəhbərlik etdiyi müvəqqəti hökumət 2004-cü ilin oktyabrında dövlətin başına gətirildi [17:s,153]. 9 oktyabrda keçirilən tarixi seçkilərdə Kərzai qalib gəldi və Əfqanıstanın demokratik yolla seçilən ilk prezidenti oldu. O, 55 % səs topladığı halda ən yaxın rəqibi Yunis Qanuni cəmi 16 % səs toplayır. Seçkilər zamanı yadda qalan hadisələrdən biri də BMT-nin üç əcnəbi seçki işçisinin silahlı qruplaşma tərəfindən qaçırılması oldu. Əfqan xalqı 1969-cu ildə Məhəmməd Zahir şahın dövründə keçirilən parlament seçkilərində səs verdikləri dövrdən bəri seçkiyə getməmişdilər [41]. 2005-in sentyabrında keçirilən ümumi seçkilərdən sonra parlament təşkil olundu, lakin ölkədə istənilən sabitlik və nizam təmin oluna bilinmədi [17:s,153].

Buş adminstrasiyasının yüksək səviyyəli rəsmiləri, xüsusilə Ağ ev və Pentaqondakılar gücü diqqətlə ölçən "realistlər" idilər. Onların 11 sentyabrdan öncəki qənaətləri göstərirdi ki, Çin xüsusi diqqət mərkəzində olmalıdır, Rusiya görməzdən gəlinə bilər, bəzi ərazilər məsələn, Şərqi Afrika və Əfqanıstan isə unudulanlardandır. Neft və qaz tapmaq Əfqanıstanda 1980-ci illərdən qalma qarışıqlıqları və ya qloballaşmanın var-dövlət və texnologiyanı dünya üzrə bərabər paylamasına əmin olmaq üçün əməkdaşlıq etməkdən daha önəmlidir [33:s,546].

11 sentyabrdan sonra isə, prioritetlər dəyişdi. Terrorizmlə mübarizə neft-qaz axtarışından ön plana keçdi. Yeni yanaşma Buş doktrinası ilə xarakterizə edilirdi və həm terrorçuların, həm də onlara sığınacaqlıq edən dövlətlərin izinə düşməyi irəli sürürdü. Bir vaxtlar boru kəməri tərəfdaşı kimi baxılan Taliban Bin Ladeni təslim etməkdən imtina etdikdən sonra, Vaşinqtonda haqqında hökm verilmiş bir düşmən kimi görülürdü. Pakistan 90-cı illərdə, xüsusən də 1998-ci nüvə qurğusunu partlatdıqdan sonra ABŞ-nin iqtisadi sanksiyalarının və qınaqlarının hədəfinə çevrilmişdi, lakin 11 sentyabrdan sonra Pakistandakı hərbi rejim Talibana qarşı müharibədə ABŞ-nin ən önəmli partnyorlarından birinə çevrildi.

2001-ci ilin əvvəllərində Buş adminstrasiyasının rəsmiləri tərəfindən zəif və əhəmiyyətsiz rəqib kimi görülən və Çeçenistan ərazindəki İslami qruplara qarşı zorakılıqlarına görə pislənən Rusiya 11 sentyabrdan sonra ABŞ-nin tərəfdaşı oldu. Belə ki, Putin ona zəng edən və dəstəyini təklif edən ilk əcnəbi lider oldu. Prezident də qismən ona görə bu təklifi qəbul etdi ki, Rusiya Çeçenistanda İslami qruplara qarşı döyüşürdü.

Şimali Qafqazda vəziyyət 1990-cı illərin əvvəllərində gərginləşməyə başladı. 1991-ci ilin oktyabrında keçirilən seçkilərdə qalib gələn Cövhər Dudayev noyabrın 1-də Çeçenistan Respublikasının suverenliyini elan edən fərman qəbul etdi. 1992-ci ilin martında yeni konstitusiya qəbul edildi və ölkənin müstəqilliyini elan etdi. İyunun 10-da isə Rusiya Müdafiə Nazirliyinin strukturlarını ləğv etdi. Bunlarla barışmayan Rusiya Federasiyası 1994-cü ildə Çeçenistan ərazisinə hərbi müdaxilə başlatdı. Birinci rus-çeçen müharibəsinə ABŞ-nin mövqeyi çox da kəskin olmadı, hətta 1994-cü ilin dekabrında preziden Bill Klinton Mayamidəki

çıxışında bunun Rusiyanın daxili məsələsi olduğunu qeyd etmişdi. ABŞ Boris Yeltsin hökumətini demokratik Rusiya üçün əhəmiyyətli amil hesab edirdi. Bu da onu Rusiyanın siyasətini tənqid etməkdən çəkindirirdi. 1996-ci ildə tərəflər arasında sülh sazişi imzalandı. ABŞ-nin bu müqaviləyə yanaşması isə müsbət oldu [3].

1999-cu ildə rus qoşunları ikinci dəfə Çeçenistan ərazisinə girdi. Artıq ikinci müharibədə ABŞ hökumətinin müharibəyə qarşı fikirləri dəyişdi. Birləşmiş Ştatlar məsələni beynəlxalq müstəviyə çəkərək Rusiyaya təzyiq etməyi planlayırdı. 1999-cu ildə ATƏT-in İstanbul sammitində ABŞ-nin dövlət katibi Medlin Olbrayt bu məsələni Rusiyanın daxili işi kimi görmədiklərini açıq şəkildə vurğuladı. ABŞ Çeçenistandakı əhalinin hüquqları məsələsini vurğulamış, Çeçenistan qaçqınlarına 10 milyon dollar yardım göstərmiş və beynəlxalq müşahidəçiləri bu əraziyə göndərmək üçün cəhdlər göstərmişdi [3].

Vaşinqtonun prioritetləri içərisində uzun müddət alt sıralarda qalan Afrika birdən-birə əhəmiyyətli məsələyə çevrildi. Buş adminstrasiyası qorxurdu ki, Əfqanıstandan qovulmuş Əl-Qaidəçilər Afrika ərazisindəki, xüsusilə də qitənin şərqindəki iqtisadi və siyasi xaosdan istifadə edərək burada sığınacaq axtararlar [33:s,547].

Bu tip dəyişikliklər ABŞ-nin Səudiyyə Ərəbistanına, Filippinə, Meksikaya və İsrail-Fələstin münaqişəsinə qarşı münasibətlərində də baş verdi. Kanada-ABŞ münasibətləri isə demək olar ki, eyni qaldı. ABŞ Kanadanı, əsasən, görməzdən gəldi. Uzun sərhəd boyunca məhdudiyyətlərin tətbiq olunması Kanadanın iqtisadi çətinilklərini artırdı. Baxmayaraq ki, rəsmi Ottava hadisələrdən sonra hərbi yardım təklif edən ilk ölkələrdən idi, Buş hökuməti Kanadanı sentyabrın ortalarından sonra təşəkkür etdiyi ölkələr siyahısından çıxardı [33:s,547].

Rəsmi Vaşinqton və Pekin arasında yüksək səviyyəli, rəsmi ziyarətlərə baxmayaraq, ABŞ-Çin münasibətlərində az da olsa dəyişikliklər özünü göstərdi. Xüsusilə, Pentaqondakılar olmaqla, Buş adminstrasiyasının vəzifəliləri son 50 ildə SSRİ-ni nəzarət altında saxladıqları kimi növbəti 50 ildə də Çini nəzarətə almağı hədəfləyirdilər. 2001-in ilk 8 ayı üçün iki ölkə arasındakı əlaqələrin pisləşdiyini deyə

bilərik. 11 sentyabrdan sonra isə, çinli liderlər ABŞ-a dəstək vermə mövzusunda Buşu əmin etdilər. Çinin prezidenti Jianq Zemin Corc U. Buşla olan telefon danışığında Çin ərazisindəki müsəlmanları nəzərdə tutaraq, "bizdə də terroristlər var" mesajı vermiş və terrorizmə qarşı ABŞ ilə birlikdə fəaliyyət göstərmək istədiklərini qeyd etmişdi. Əlavə olaraq da, Tayvan məsələsi ilə bağlı aradakı gərginliyi azaltdılar və ABŞ Mərkəzi Asiya ölkələrində bazalar qurmağa başlayanda çox mənfi reaksiyalar vermədilər. Mərkəzi Asiyada ABŞ bazalarının aylarla yox, illərlə qalacağı məlum idi. Regionda ABŞ-nin iqtisadi və hərbi təsiri Çinin maraqlarını azaltdı. Cənubi Asiyada ABŞ-nin hərbi və iqtisadi varlığı gücləndikcə, Çinin Cənubi Asiyanı özünə bağlayacaq nəqliyyat şəbəkəsi qurma planları zəifləməyə başladı [33:s,548].

Çinlə olan münasibətlər Buş adminstrasiyasını son qırx ildir ABŞ-nin pis münasibətləri olan Hindistanla yaxınlaşdırdı. Bu dövrdə yeni başlanğıc xüsusilə önəmli idi. Resurslar nəzərə alındıqda Çinin məqsədlərinə əngəl ola biləcək tək ölkə məhz Hindistan idi. 2005-ci ilin iyununda "ABŞ- Hindistan arasında Müdafiə Əlaqələrinə dair Yeni Çərçivə" adlı sənəd qəbul edildi. Beləliklə, Çin bir növ cənub və qərb sərhədləri boyunca mühasirəyə alındı. Şərqdə isə bu vəzifəni Yaponiya öz üstünə götürdü. Belə ki, Yaponiya ABŞ-nin burada missiyaları üçün dəniz və hava qüvvələrini yerləşdirmə təklifinə qısa bir müddətdə razı oldu [33:s,548].

Prezident Buş İran və Suriyaya qarşı diplomatik təzyiqlərini də artırdı. İranın nüvə silahı istehsalı proqramından əl çəkməsini istəyən Buş lazım gələrsə, İrana qarşı hərbi gücdən çəkinməyəcəyini də ifadəsində bildirmişdi. Bu məsələdə Avropa dövlətləri ABŞ ilə fikir ayrılığına düşmüşdü. Belə ki, Avropalı liderlər məsələnin danışıqlar vasitəsi ilə həllində tərəfdar idilər. Nəticə olaraq, İran Avropa dövlətlərinin vasitəçiliyi ilə nüvə silahı istehsalı proqramını dayandırdığını elan etdi [15: s,112].

Suriya da ABŞ-nin hədələri ilə üzləşdi. Buş Suriyadan Hizbullah və Həmas kimi təşkilatlara dəstək verməsini dayandırmağı tələb etdi. Eyni zamanda, Livandakı əsgərlərini də geri çəkməyi tövsiyyə etdi. Livanlı lider Hərrarinin sui-qəsdlə öldürülməsi və ardınca Livanda təşkil olunan nümayişlərdə Suriyanın açıq şəkildə

günahkar göstərilməsi Orta Şərq regionundakı gərginliyi daha da artırdı. Qeyd edək ki, ABŞ-nin təzyiqləri nəticəsində, Suriya qısa zamanda Livandakı hərbi qüvvələrini geri çəkdi [15: s,112].

29 oktyabr 2004-cü il tarixində, yəni, Əfqanıstandakı prezident seçkilərindən üç həftə sonra və ABŞ-dəki prezident seçkilərinə bir neçə gün qalmış Usama Bin Laden videogörüntülü bir mesaj yaydı. Ərəb kanalı Əl-Cəzirədə yayımlanan çıxışında Bin Laden Buş adminstrasiyasını lağa qoyur və 11 sentyabr hücumlarının məsuliyyətini öz üzərinə götürür. Bin Laden qeyd edir : "Siz bizim millətimizi məhv etdiyiniz kimi, biz də millətimizin azadlığını bərpa etmək istəyirik" [41].

Prezident Corc U. Buşun həyata keçirdiyi xarici siyasət bir sıra nəticələr meydana gətirdi. İlk olaraq, böyük dövlətlər arasında rəqabətin artmasına gətirib çıxardı. Əfqanıstan və İraq siyasətinə paralel olaraq, ABŞ Azərbaycan, Qırğızıstan, Özbəkistan, Türkmənistan və Səudiyyə Ərəbistanı kimi ölkələrlə əlaqələrini yaxınlaşdırmağa başladı. Belə ki, ABŞ hökuməti Özbəkistanla strateji müttəfiqliklə bağlı razılaşma imzaladı və Azərbaycana tətbiq etdiyi iqtisadi embarqonu bir illiyinə dayandırdı. Bu ölkələrə maliyyə və hərbi yardımları artıran Buş adminstrasiyası digər tərəfdən Səudiyyə hökuməti ilə neft istehsalının artırılması ilə bağlı səmimi görüşlər keçirdi. Bu cəhdlər Rusiya, Almaniya, Fransa, Çin kimi dövlətlər tərəfindən ABŞ-nin dünya hakimiyyətinə can atması kimi qiymətləndirildi. Bu da öz növbəsində, beynəlxalq sistemdə mövcud olan rəqabəti daha da artırdı. Digər tərəfdən, demokratiya yayma cəhdləri bir çox ölkələrdə böyük problemlərə, o cümlədən, vətəndaş müharibələrinə gətirib çıxardı.

Növbəti nəticə İsrail-Fələstin problemi ilə bağlı idi. Region ölkələri regiondakı əsas problemlərin İsrailin Fələstin siyasətindən qaynaqlandığını qeyd edir və ABŞ-dən İsrailə təzyiq göstərməsini tələb edirdilər. ABŞ isə onlarla eyni fikri bölüşmürdü. Amerikaya qarşı ziddiyətlərin ortaya çıxması və ya mövcud olan ziddiyyətlərin artması digər bir nəticə hesab oluna bilər. Belə ki, ABŞ-nin İraqda və Quantanamoda insan hüquqlarının pozulmasına gətirib çıxaran fəaliyyətləri bu ölkəyə qarşı ziddiyyətlərin artmasına səbəb oldu. Avropa xalqlarının

əksəriyyəti demokratiyanı yaymağın ABŞ-nin işi olmadığını düşünürdülər. Bu tip düşüncələr dünyanın bir çox ölkələrində ABŞ-yə qarşı nümayişlərin keçirilməsində özünü göstərdi.

Terorizmlə mübarizə siyasətində hərbi metodların çatışmazlığını da qeyd edə bilərik. ABŞ-nin terrorizmlə mübarizəsi arzu edilən nəticəni vermədi. ABŞ-nin təşkil etdiyi hərbi əməliyyatlar nəticəsində Əl-Qaidə, Taliban kimi təşkilatların təsiri zəifləndildi, lakin tamamilə aradan qalxmadı. Son olaraq isə, əməliyyatlardan sonra sülhün qurulması üçün hər hansı bir siyasət irəli sürülmədi. Yəni, Birləşmiş Ştatlar hökuməti ölkədəki mövcud vəziyyətin düzəldilməsi üçün hansısa bir səy həyata keçirmədi [15:s,113-118].

Corc U. Buşun xarici siyasət addımlarına təsir edən bir sıra amillər var idi ki, bunlardan biri neokonservativlər idi. Xüsusilə 11 sentyabr hücumlarından sonra neokonservativlər Buşun xarici siyasəti üzərində əhəmiyyətli təsirə malik oldular. Vitse-prezident Dik Çeyni və müdafiə naziri Donald Ramsfeld başda olmaqla, neokonservativlər 11 sentyabr sonrasında ABŞ-nin təcavüzkar və Orta Şərqə yönələn xarici siyasətində fəal rol oynadılar. Onlar dövlətlərarası münasibətləri müəyyənləşdirən əsas elementin hərbi güc olduğunu və ABŞ-nin xarici maraqlarının Orta Şərqə cəmləndiyini iddia edirdilər. Onların bu regiona xüsusi maraqlarının olması da təsadüfi deyildi. Belə ki, bu düşüncə tərzini istər intellektual, istərsə də siyasi cəhətdən təmsil edən şəxslərin əksəriyyəti yəhudi mənşəli idi. Bu da neokonservativlərin uzun müddət Birləşmiş Ştatların xarici siyasətində İsrailin təhlükəsizliyinin həmişə önəmli olması və bu ölkənin hər şəraitdə dəstəklənməsinə dair fikirlərini açıqlayırdı [4:s,222-223].

Digər bir amil kimi İsrail lobbisini misal göstərə bilərik. Lobbinin əsas məqsədi İsrailin təhlükəsizliyini və maraqlarının təmin edilməsini təminat altına almaq idi. Məhz bu amil ABŞ-nin İraqı işğal etmək qərarının arxasındakı əsas güc hesab olunur. Lobbi təşkilatçılığının yaxşı olması, digər lobbilərin dəstəyini qazanması və onları öz maraqlarına uyğun səfərbər edə bilmə gücü ilə seçilir. Bu da onun Birləşmiş Ştatların istər daxili, istərsə də xarici siyasəti üzərində böyük təsir yaratmasının əsas səbəbidir. Məsələn, 2001-2005-ci illərdə dövlət katibi olmuş

Kolin Povel İraqın işğalından sonra bu ölkə ilə bağlı İsrailin növbəti bir düşmənini də aradan qaldırmış olduqlarını elan etmişdi [4:s,223].

11 sentyabr sonrasında ölkə daxilində təhlükəsizliklə bağlı bir sıra islahatlara yol açdı. Bunlardan bir digəri Kəşfiyyat İslahatı oldu. 2004-cü il tarixli islahat ölkədəki 15 kəşfiyyat qurumunu bir yerə yığmış oldu. Səbəbi isə, bu 15 kəşfiyyat orqanının 11 sentyabr hadisələri ilə bağlı əvvəlcədən məlumat əldə etməmiş olmaları idi. Məqsəd bu qurumları vahid şəkildə birləşdirərək, daha mütəşəkkil və bir-birləri ilə əlaqəli fəaliyyət göstərmələrini təmin etmək idi [11:s,62].

11 sentyabr hücumlarının ABŞ cəmiyyətində belə dərin təsirlər buraxmasının üç əsas səbəbi var idi. Birincisi, 1812-ci ildə müharibə zamanı Vaşinqtonun yandırılmasından bu yana ABŞ-nin quru ərazisinə belə böyük hücum olmamışdı. Amerikan ictimaiyyəti hər zaman ölkələrinin təhlükəsizlik şəraitində olduğunu düşünürdülər, lakin bu hadisələr onların düşüncələrini darmadağın etdi. İkinci olaraq, 11 sentyabr Amerikan əsgərinə deyil, mülki əhaliyə yönəlmiş bir hücum idi. Hətta, Perl – Harbor hücumu belə hərbi personalı hədəf almışdı. Üçüncü və daha önəmlisi səbəb isə, terror hadisəsi üç min insanın həyatını itirməsinə gətirib çıxardı ki, Perl – Harborda olan itki sayı cəmi olaraq min nəfərə çatırdı. Qısacası, 11 sentyabr ABŞ cəmiyyətində dərin və gözəçarpan bir təsir buraxdı ki, bunu müxtəlif səviyyələrdə görmək olar : xalqın xarici siyasətə qarşı münasibətinin dəyişməsi, Konqresin gündəminin tez-tez dəyişməsi, prezidentliyin özünün xarakterinin dəyişməsi və s. [34:s,244].

### 1.3. ABŞ Milli Təhlükəsizlik Strategiyasında Buş doktrinasınınn yeri

Amerika Birləşmiş Ştatlarının (ABŞ) qlobal addımlarını anlamaq üçün onun “milli təhlükəsizlik strategiyalarına” nəzər salmaq lazımdır. “Yeni əsrdə milli təhlükəsizlik strategiyası” (A National Security Strategy for a New Century) adlı sənəddə ABŞ dünyanı necə gördüyünü, özü üçün prioritet hesab etdiyi mövzuları, təhlükə və təhdidlərin nələr olduğunu açıq şəkildə ifadə etmişdir [19].

Buş Doktrinası ABŞ-nin 43-cü prezidenti Corc Buşun adı ilə bağlı olan Milli Təhlükəsizlik Strategiyası sənədi ilə formalaşan yeni Amerikan xarici siyasətinin fəlsəfəsini təşkil edir. 11 sentyabr hücumlarından sonra ABŞ xarici siyasəti 2002-ni ildə yayımlanan Buş doktrinasının müddəaları ilə yenidən formalaşdırılmışdır. Yeni xarici siyasət anlayışı ABŞ-yə yeni bir hegemoniya qurmaq şansı yaratdı. Hücumlarla bağlı olaraq beynəlxalq ictimaiyyətdə Birləşmiş Ştatlarların lehinə reaksiya formalaşmış və bu da öz növbəsində ABŞ-yə Soyuq müharibədən sonrakı dövrdə əldə etdiyi "tək hegemon" mövqeyini yenidən bərpa etmə fürsəti yaratmışdır [14:s,52].

11 sentyabr 2001-ci il hadisələrindən sonra ABŞ 2002-ci ilin sentyabrında Milli Təhlükəsizlik Strategiyasında "bizim üçün ən yaxşı müdafiə, yaxşı bir hücumdur" şəklində bir siyasət hazırladı. Strategiya sonradan Birləşmiş Ştatların istənilən bir hücumdan əvvəl hərəkətə keçəcəyini vurğulayaraq, "biz bu cür terroristlərə qarşı qabaqcadan hərəkət edərək, onların xalqımıza və ölkəmizə zərər vermələrinin qarşısını almaq üçün lazım gələrsə, təkbaşına hərəkət etməkdən çəkinməyəcəyik" [36:s,73].

Altı aydan az bir müddətdə prezident Buş preventiv addımlarının əhatəsini KQS-lar əldə etmək istəyən düşmən rejimləri, xüsusilə də İraqı əhatə edəcək şəkildə genişləndirdi. 2003-cü ilin yanvarında 28-də xalqa etdiyi illik çıxışında o, dedi: "Bəziləri deyiblər ki, biz təhlükə yaxınlaşana qədər hərəkətə keçməməliyik. Nə vaxtdan bəri terrorçular və tiranlar öz niyyətlərini açıqlayır, hücum etməmişdən əvvəl nəzakətli şəkildə bizə xəbər verirlər? Təhlükənin birdən- birə və tam şəkildə ortaya çıxmasına icazə verilsə, onda bütün hərəkətlər, bütün sözlər və günahlandırmalar üçün çox gec olar" [36:s,73].

2002-ci il Milli Təhlükəsizlik Strategiyasında ən çox diqqət çəkən amil, preventiv müharibə strategiyasının vurğulanmasıdır. Mahiyyəti isə ABŞ-nin təhlükə formalaşmazdan əvvəl hərəkətə keçməsidir. Sənəddə Soyuq müharibə dövründə tətbiq olunan "çəkindirmə" strategiyasının effektiv olduğu, lakin quldur dövlətlərin rəhbərləri üzərində təsir ehtimalının az olduğu göstərilir [7:s,85].

Sənəddə əks olunan preventiv müharibə və preemptiv zərbə anlayışlarının izahlarına nəzər salmaq lazımdır. Preemptiv hücum dedikdə, hər hansı bir düşmən tərəfindən gözlənilən ya da reallaşması yüksək ehtimal olan hədənin qarşısının alınması və ya təsirinin zəiflədilməsi üçün güc istifadəsi nəzərdə tutulur. Preventiv müharibə isə hansısa bir hücumun hücum edəcək şəxsin bunu planlamasını göstərən bir işarə olmasa belə aradan qaldırılması üçün güc istifadəsidir. Yəni, preemptiv zərbə üçün yaxın zamanda gözlənilən bir təhlükə lazımdırsa, preventiv müharibə təhlükə ilə bağlı şübhə üzərində qurulur [7:s,85-86].

Doktrina dövlətlərin potensial hədələrə qarşı preventiv məqsədli hərbi gücdən istifadələrini leqallaşdırmaq üçün təklif olunmuşdu.Eyni zamanda bu sənəd geniş mübahisələrə də səbəb olmuşdur ki, mübahisələrin əksəriyyətinin əsasında əxlaqi məsələlər dururdu [36:s,100]. ABŞ-nin milli təhlükəsizlik strategiyasına əlavə etdiyi bu sənəd ABŞ-nin hər şəraitdə hərbi üstünlüyünü hədəfləyirdi. Doktrina lazımı situasiyalarda hərbi müdaxiləni tövsiyyə edir və Birləşmiş Ştatların maraqlarının digər bütün dövlətlərin suverenliyindən və maraqlarından üstün olduğunu vurğulayırdı [21:s,10].

Tədqiqatçılar Peter Dombrovski və Rocer Peyn özlərinin "Qlobal mübahisə və Buş doktrinasının limitləri" əsərində qeyd edirlər ki, doktrina bir-biri ilə əlaqəli olan iki elementi əhatə edir. Birincisi, ABŞ terrorçular ilə onları dəstəkləyən dövlətlərə və KQS-yə sahib olmaq istəyən quldur dövlətlərə qarşı preventiv güc istifadə etmə hüququnu özündə saxlayır. İkincisi isə, Birləşmiş Ştatlar terrorçular ilə onları dəstəkləyən dövlətlər arasında heç bir fərq qoymur. Yəni, birinci element ABŞ-nin terrorizmdən irəli gələn təhlükələrə necə qarşılıq verəcəyini əks edirsə, ikinci element bu ölkənin preventiv müharibənin təkcə qeyri-dövlət aktorlarına qarşı yox, həm də terrorizmi dəstəkləyən dövlətlərə qarşı istifadə edəcəyini göstərir [7:s,86].

Buş doktrinası ABŞ-nin həmin dövrdə dünyada yeganə super güc olması və qeyri-müəyyən gələcək üçün öz hegemon mövqeyini qoruyub saxlamağa çalışması fikrini qəbul etməklə başlayır. Prezident Buş 2002-ci ilin iyununda Vest-Pointdə məzuniyyət nitqində qeyd etdi ki, "Amerika meydan oxumalardan artıq

hərbi gücə malikdir və saxlamaq niyyətindədir. Beləliklə,digər dövrlərin sabitliyi pozan silahlanma yarışlarının bir mənası qalmır və rəqabət ticarət və digər sülh axtarışları ilə məhdudlaşdırılır. 17 sentyabr 2002-ci il tarixli "Amerika Birləşmiş Ştatlarının Milli Təhlükəsizlik Strategiyası"na dair hesabatında Corc U. Buş bəyan etdi ki, "Biz müdafiəmizi çətinliklərdən kənarda qurmalı və saxlamalıyıq". O, davam etdi: " Bizim qüvvələrimiz potensial düşmənlərimizi ABŞ-nin gücünü üstələmək və ya onla bərabərləşdirmək ümidi ilə hərbi güclənməkdən çəkindirmək üçün kifayət qədər güclü olacaqdır" [25].

Buş doktrinasının ikinci elementi, şərait təmin olunduqda, hərbi gücdən qabaqcadan (preemptive) istifadə etmək öhdəliyidir. Qabaqcıllıq siyasəti bəlkə də Buş doktrinasının ən mübahisəli elementidir və siyasətə təsirlərinə görə onun ən çox diqqət çəkən hissədir. Dünya Ticarət Mərkəzinə və Pentaqona edilən 11 sentyabr terror hücumları fonunda Buş administrasiyası Soyuq Müharibə dövründə mövcud olandan köklü şəkildə fərqlənən bir təhlükə mühiti təsvir etdi. Ən narahatedici hədələr isə "quldur" dövlətlər və kütləvi qırğın silahları (KQS) ilə silahlanmış terrorçular hesab olunurdu. 11 sentyabr terroristlərin Amerika torpaqlarında geniş miqyaslı dağıntılar və ölümlər törətməyə hazır olduğunu kəskin şəkildə göstərdi. 11 Sentyabr hadisəsindən sonra MSNBC və Fox News-da görünən neokonservativ ekspertlər tərəfindən qəsdən qızışdırılan qorxu mühitində "quldur" dövlətlərin və ya kütləvi qırğın silahları ilə silahlanmış terrorçuların ssenariləri Buş administrasiyasının rəsmiləri tərəfindən qəbuledilməz hesab edildi. 2002-ci il Milli Təhlükəsizlik Strategiyasında deyilir: "Biz "quldur" dövlətləri və onların terrorçu müştərilərini ABŞ, müttəfiqlərimiz və dostlarımıza qarşı kütləvi qırğın silahları ilə təhdid edə və ya istifadə edə bilməmişdən əvvəl dayandırmağa hazır olmalıyıq. Biz təhlükə baş verməmişdən əvvəl onun qarşısını almalıyıq və ondan müdafiə təmin etməliyik" [25].

Doktrinanın üçüncü elementi əvvəlki iki elementdən məntiqlə irəli gələn birtərəflilik anlayışıdır (unilateralizm). Birqütblü beynəlxalq sistemin saxlanmasına və qabaqcıllıq doktrinasına sadiqlik mahiyyət etibarilə birtərəfliliyi göstərir. Birləşmiş Ştatların BMT Təhlükəsizlik Şurasının İraqa qarşı güc tətbiqinə icazə

verən qətnaməsini əldə edə bilməməsinin sübutu kimi, gücdən qabaqlayıcı istifadəyə dair konsensus əldə etmək olduqca çətindir. Bununla belə, Buş administrasiyasının davranışı göstərdi ki, onlar bunu əhəmiyyətli bir maneə ya da problem kimi qəbul etməmişdilər [25].Doktrinada əks olunan müddəalara əsaslanaraq başlanan İraq müharibəsi göstərdi ki, lazım gəldikdə ABŞ təktərəfli hərəkət edə və istənilən düşmənə qarşı hərbi əməliyyatlar təşkil edə bilər. Beynəlxalq təşkilatlarla olan əməkdaşlıqları isə bunu əngəlləyə bilməz [14:s,57]. Neokonservativlər prezident Klintonu Səddam Hüseyni hakimiyyətdən uzaqlaşdıra bilməməklə yanaşı həm onun xarici siyasətə çoxtərəfli yanaşmasını da yüksək tənqid edirdilər. Onlar iddia edirdilər ki, birqütblü güclərin çoxtərəfli fəaliyyət göstərməyə ehtiyac yoxdur; onların birtərəfli hərəkət etmək imkanları var. Buşun birtərəfli hərəkətə üstünlük verməsi 11 sentyabr hadisəsindən əvvəl də aydın idi. Qısa müddətdə Buş administrasiyası bir sıra beynəlxalq müqavilələri, o cümlədən Beynəlxalq Cinayət Məhkəməsi müqaviləsini, iqlim dəyişikliyinə dair Kyoto Protokolunu, bioloji silahlara qadağa tətbiq edən protokolu rədd etdi, 1972-ci ildən Rusiya ilə bağlanmış Ballistik Raketlər Əleyhinə Müqavilədən çıxdı [25].

Corc Buş adminstrasiyası 11 Sentyabr hücumlarının ardından Əfqanıstan və İraqa hücum edərək çoxtərəflilik yanaşmasından əl çəkdi.Bununla da birtərəfli hərbi müdaxilələri özü üçün qanuni xarici siyasi fəaliyyət olaraq gördüyünü açıq şəkildə göstərdi. Bu çərçivədə ilk olaraq, Əfqanıstanda Taliban rejimi və Əl-Qaidə təşkilatına qarşı geniş miqyaslı hərbi müdaxilə həyata keçirdi. Müdaxilə müddətində ABŞ hərbi əməliyyatlarla bağlı beynəlxalq cəmiyyətin və regional təşkilatların dəstəyini qazana bildi [15:s,111]. Bir sıra Mərkəzi Asiya ölkələri öz hava məkanlarını ABŞ üçün açdılar. İlk mərhələdə bu ölkələr Özbəkistan, Qırğızıstan və Tacikistan oldu. Bu ölkələrdə Amerikan əsgərləri yerləşdirildi [12:s,45].

Buş doktrinasının son elementi və ABŞ-nin xarici siyasət tarixinə dərindən daxil olan element isə demokratiyanın təşviqidir. Amerika xarici siyasətini müşahidə edən bir çox müşahidəçinin qeyd etdiyi kimi, siyasətçilər arasında ABŞ-nin iqtisadi və təhlükəsizlik maraqlarının xaricdə liberal dəyərlərin və demokratik təsisatların yayılması ilə irəliləməsinə dair bir fikir mövcuddur. Neokonservativlər

bu inancı tam şəkildə əks etdirirlər. Onlar Amerikanın xarici siyasətinin demokratiyanı yaymaq üçün fəal şəkildə və bəzən də gücdən istifadə ilə işləməli olduğu fikrini qətiyyətlə dəstəkləyirlər. Demokratiyanı ən yaxşı idarəetmə forması kimi qəbul etməklə və demokratiyanı bütün dünyaya yaymaq vəzifəsi götürməklə, neokonservativlər Vilsonçu liberalizmin varisləri hesab olunurlar [25].

Həqiqətən də, İraq situasiyası ABŞ üçün bütün Yaxın Şərqin regional olaraq, demokratikləşməsi yolunda sadəcə ilk addım olmaq niyyətində idi. İllərlə avtoritar, monarxiya hökumətlərini dəstəklədikdən sonra Buş administrasiyası qəfil qərara gəldi ki, demokratiya bütün bəlaların, xüsusən də Yaxın Şərqi narahat edən terrorizmin artmasının tək çarəsidir. İraqı işğal etmək üçün əsaslardan biri isə diktator Səddam Hüseynin devrilməsi ilə İraqda demokratiyanın çiçəklənəcəyi iddiası idi. SSRİ-nin dağılmasından sonra diktatorların bir-birinin ardınca hakimiyyətdən uzaqlaşdırılması ilə Şərqi Avropada demokratiya çiçəkləndiyi kimi, İraq üçün də eyni ssenari proqnozlaşdırılırdı. İddia olunurdu ki, demokratiya İraqın xarici siyasətində kəskin dəyişikliklə nəticələnəcək və Bağdaddan qaynaqlandığı iddia edilən terror təhlükəsini aradan qaldıracaq. Əlavə olaraq, neokonservativlərin fikrincə, İraqdakı demokratiya bütün Yaxın Şərqə təsir göstərəcək. Prezident Buşun 2003-cü ildə Milli Demokratiya Fonduna etdiyi çıxışında o, “İraq demokratiyası uğur qazanacaq və bu uğur Dəməşqdən Tehrana qədər xəbərlər göndərəcək” deyə qeyd etmişdi. Demokratiya ABŞ üçün terror təhlükəsini aradan qaldırmaqla kifayətlənməyəcək, həm də Yaxın Şərq regionunu ümumilikdə regiona və Amerikanın strateji müttəfiqi olan İsrailə faydalı olacaq demokratik bir sülh zonasına çevirməyə kömək edəcək [25].

Buş doktrinasında qeyd olunur ki, əgər ABŞ-nin keçmişdəki düşmənlərinin onu hədələmək üçün böyük ordulara və sənayə imkanlarına ehtiyacları var idi.Müasir dövrdə isə terroristlər ABŞ-yə hücum etmək üçün son texnologiyalardan istifadə edir və mütəşəkkil şəkildə birləşirlər. Buna baxmayaraq Əfqanıstanın timsalında zəif bir dövlətin də ABŞ-nin milli maraqlarına güclü dövlətlər kimi hədələr yarada biləcəyini vurğulayır. Bu yeni vəziyyətdə Birləşmiş Ştatlar sülhü qorumaq üçün terroristlərə və tiranlara qarşı mübarizə aparacaqdır [14:s,54].

Qeyd etdiyim kimi, doktrinanın ilk tətbiq edildiyi ərazi İraq hesab olunur. Beynəlxalq təşkilatlar və bir çox dövlətlərin qarşı çıxmasına və müharibə üçün əsaslı bir səbəbin olmamasına baxmayaraq, Buş hakimiyyətinin İraqı işğal etməsinə mane oluna bilinmədi [21:s,10]. Əfqanıstanın işğalı zamanı beynəlxalq dəstəyə arxalanan ABŞ, 2003-cü ildə İraqa girərkən belə bir dəstəyə ehtiyac duymamışdı [14:s,57].

Buş doktrinası elm adamları arasında da geniş miqyaslı müzakirələrə səbəb olmuşdur. Belə ki, doktrinanın bir çox tənqidçiləri mövcuddur. Onlardan biri olan, ABŞ-nin Prinston Universitetinin professoru Riçard Folk "Yeni Buş Doktrinası" adlı məqaləsində bu sənəd ilə bağlı fikirlərində bildirir ki: "Bu sənədin İraqa tətbiq olunması üçün heç bir lazımlı əsas yoxdur. Buş hakimiyyəti ya mövcud vəziyyəti səhv analiz etmişdir, ya da müharibəni başladarkən açıqlamadığı başqa niyyətləri var idi". Müəllifə görə, İraq müharibəsi regional hegemonluq əldə etmək üçün təşkil olunmuş bir Amerikan hərəkatıdır [21:s,10-11].

Doktrinanın tənqidçiləri 3 əsas problemə diqqət çəkirlər. Birinci problem budur ki, "preventiv müharibə" strategiyası həll etdiyi problemlərdən daha çox problem yaratmışdır. Doktrina ABŞ-nin sahib olduğunu iddia etdiyi "çoxtərəflilik" xarakterini şübhə altına salmaqla yanaşı,müharibələrin çox yayılması ilə nəticələnmişdir. Digər problem rejim dəyişikliyi və dövlət suverenliyi məsələsinin sorğulanmasına gətirib çıxarır. Üçüncü olaraq isə, Amerikan üstünlüyü və nüfuzunun miqyasının problemli olmasıdır [14:s,64].

Digər tənqidlərə görə doktrina müdafiə (preventiv) yox, qabaqlayıcı (preemptiv) xarakter daşıyır . Prezident Buş özünün 2002-ci ilin yanvarında "State of the Union" çıxışında xəbərdarlıq etmişdi: "Təhlükələr artdığı bir müddətdə hadisələri gözləməyəcəyəm. Təhlükə daha da yaxınlaşdıqca gözləmədə qalmayacağam. ABŞ dünyanın ən təhlükəli rejimlərinin bizi ən dağıdıcı silahlarla hədələməyinə icazə verməyəcək." [35:s,188].

Buş doktrinasına edilən tənqidlərdən biri də "daxildən" edilən Corc Sorosun tənqidi idi. Soros macar əsilli amerikalı biznesmen və xeyriyyəçi idi. Qafqaz regionundakı "məxbəri inqilablar"a təsir etdiyi iddia edilən Soros

özünün "Amerikan üstünlüyü xəyalı" adlı əsərində Amerikanın gücündən yalnış şəkildə istifadə edildiyini vurğulayırdı. Müəllif Buş doktrinasını yazıçı Corc Oruelin "Heyvanıstan" əsərinə bənzədirdi. "Bütün heyvanlar bərabərdir, lakin bəzi heyvanlar digərlərindən daha bərabərdir.!" [21:s,12-13].

Doktrinada yer alan "demokratiya və azadlıq gətirmə" ifadələrini saxta hesab edən Soros, "İraqa azadlıq gətirmə" əməliyyatının uğursuzluqla nəticələnməsinə diqqət çəkir və "İraqın işğalı əsl fəlakətə çevrildi" deyə fikir bildirir. "Buş hökuməti hərbi güc istifadə edərək, dünyanın qalanına öz fikirlərini və maraqlarını yeritməyə çalışır. Buş doktrinasında buna haqqı olduğunu irəli sürür" [21:s,13].

11 sentyabr terror aktı həm ABŞ, həm də milyonlarla insanın həyatı üçün dönüş nöqtəsi oldu. 11 Sentyabr hücumundan sonra tətbiq edilən Yeni Milli Təhlükəsizlik Strategiyası yeni dünya nizamında ABŞ üçün ən böyük problem olan terror aktlarına qarşı mübarizə aparmaq üçün qurulmuş kimi görünsə də, təcavüzkar xarici siyasət alətinə çevrildi. Buş doktrinası adlanan ABŞ xarici siyasəti 11 sentyabr hücumuna cavab olaraq ortaya çıxdı, lakin qlobal sistemdə mövcudluğunu davam etdirdi. Əvvəlcə Əfqanıstanın işğalına haqq qazandırmaq üçün istifadə edilən doktrina daha sonra "preventiv hücum" kimi genişləndirilərək, xüsusən də Yaxın Şərqdə müxtəlif əməliyyatlarla praktikada tətbiq olundu. Buş administrasiyası tərəfindən Yaxın Şərqdə demokratiyanın yayılması və terror yuvalarının təmizlənməsi məqsədi ilə tətbiq edilən bu doktrina və yeni təhlükəsizlik anlayışı ABŞ-nin xarici siyasət quruculuğunda birtərəflilik siyasətinə töhfə verdi. ABŞ BMT başda olmaqla heç bir qurum və dövlətin icazəsi olmadan həyata keçirəcəyi qabaqlayıcı hücumları özünə qarşı təhlükə hiss edən kimi reallaşdıracağını bəyan etdi. Bu mövqeyi ilə "dünyanın harasında terror təşkilatı varsa, ABŞ üçün potensial təhlükədir" anlayışı ilə, beynəlxalq hüquq konvensiyalarını alt-üst edən bir siyasət ortalığa qoydu [6:s,7].

# II FƏSİL. CORC BUŞUN PREZİDENTLİYİ DÖVRÜNDƏ BEYNƏLXALQ TERRORİZMLƏ MÜBARİZƏ SİYASƏTİ

## 2.1. Beynəlxalq antiterror koalisiyasının yaradılması və "terrora qarşı müharibə"nin hədəfləri

11 sentyabr 2001-ci ilin səhərində terroristlərin sərnişin təyyarələrini kütləvi qırğın silahlarına çevirməsi ABŞ-nin qlobal terrorizmə qarşı qaçınılmaz bir "müharibə"yə başlamasına səbəb oldu [30].

Terrorizmlə mübarizə kampaniyası XX əsrin Soyuq müharibəsini xatırladırdı. Mübarizəyə başlayan zaman ABŞ onun nə vaxt və necə başa çatacağına dair dəqiq fikrə sahib deyildi. Əfqanıstanda tam uğur əldə etsəydi belə, bu mütləq qələbə mənasına gəlməyəcəkdi. Çünki, Əl-Qaidə terror şəbəkəsinin əlaqələri Əfqanıstandan xeyli kənara çıxırdı. Bin Laden və köməkçiləri ələ keçirilsə və öldürülsə belə, təşkilat sonradan özünü yenə bərpa edə və yeni hücumlar törədə bilərdi. Bu hücumlar baktereoloji və radioloji silahları da əhatə edə bilərdi [30].

Soyuq müharibənin əvvəllərində olduğu kimi bu dövrdə də ABŞ cavab tədbirlərinə koalisiya qurmaq kimi çətin bir vəzifə ilə başladı. Terrorizmə qarşı müharibədə Birləşmiş Ştatların qarşısında həm də ölümdən qorxmayan, ideoloji motivə əsaslanan bir düşmən vardı. Prezident Buş hər bir dövləti "sivilizasiyanın mübarizəsi"nə qoşulmağa dəvət etdi. Həmin dövrün Müdafiə Departamentinin katibi Donald Ramsfeldin də dediyi kimi, bu müharibə yalnız amerikalıların bir də qorxu və terror hücumu düşünmədən gündəlik həyatlarına davam edəcəkləri günə qədər çəkəcəkdi [30].

11 sentyabr hadisələri Birləşmiş Ştatlar üçün travmatik bir hadisə idi, çünki, bu ölkənin gücünü göstərən simvollarından ikisi hücuma məruz qalmış və minlərlə insanın həyatına son qoyulmuşdu. Hücumların nəticələri ilə mübarizə aparmaq üçün strategiya hazırlanmalı və ilk addım olaraq da qeyd etdiyim kimi, koalisiya qurulmalı idi. Bu o demək deyildi ki, ABŞ hər siyasəti ilə və ya atacağı hər

addım ilə bağlı məsləhətləşmələr aparacaqdı, lakin rəsmi Vaşinqton qərar verərkən potensial koalisiya üzvlərinin fikirlərini də nəzərə almalı olduğunu dərk edirdi. Təbii ki, koalisiyadakı hər dövlət ABŞ-nin bütün taktika və strategiyaları ilə razılaşmaya bilərdi, lakin regional və ya qlobal anti-terror cəhdlərində uğurlu olmaq üçün müəyyən bir koordinasiyaya malik olmaq lazım idi [31].

Koalisiya üzvləri bir-birlərinə regional, qlobal və ən önəmlisi isə daxili terrorizmlə mübarizədə ictimai dəstək nümayiş etdirməli idilər. Tərəfdaş ölkələr terror təşkilatlarının, xüsusilə də Əl-Qaidənin bank hesablarını dondurmalı, təlim mərkəzlərini bağlamalı, etibarlı informasiya mənbələri və ictimai maarifləndirmə proqramları təşkil etməli idilər. Onlar həm də kəşfiyyat mübadilələri aparmalı və regional və qlobal səviyyədə polis əməkdaşlığını gücləndirməli idilər [31].

Terrorizmlə mübarizədə ABŞ-nin əsas müttəfiqləri NATO çərçivəsində Avropa dövlətləri oldu. Hücumlardan 10 gün sonra, 21 sentyabr 2001-ci il kimi erkən bir tarixdə Avropa Şurası hücumlardan sonrakı dövrdə beynəlxalq münasibətləri təhlil etmək məqsədiylə keçirdiyi görüşdə ABŞ ilə həmrəylik içərisində olduqlarını elan etdi. Ümumi bir təhlükənin mövcud olması fikri gün boyunca davam etdi. 11 sentyabrın demokratik, tolerant və çoxmədəniyyətli cəmiyyətlərə edilmiş bir hücum olduğu vurğulandı. Vaşinqton müqaviləsinin 5-ci maddəsinin həyata keçirilməsi NATO Şurasının gələcəyi nəticədən asılı idi. Belə ki, əgər Şura bu hücumların xaricdən birbaşa Birləşmiş Ştatlara yönəldiyini müəyyən etsəydi, bu zaman 5-ci maddə həyata keçiriləcəkdi. Bu maddənin mahiyyətini üzv dövlətlərdən birinə və ya bir neçəsinə edilən silahlı hücumu bütün Alyansa edilmiş kimi qəbul etmək təşkil edirdi. Qısa müddətdə bu maddə yerinə yetirildi və NATO-nun avropalı üzvləri kollektiv təhlükəsizlik maddəsinin reallaşdırılmasını qəbul etdilər [38:s,13].

Soyuq müharibə ərzində NATO həmrəyliyinin SSRİ-ni Avropa üzərinə hücum etməkdən çəkindirmək üçün kifayət etdiyi düşünülürdü, lakin bu heç vaxt sınaqdan keçirilməmişdi. NATO-nun qurucu müqaviləsi imzalanan zaman qurucu dövlətlərdən heç biri maddənin bu şəkildə tətbiq ediləcəyini ağlına gətirə bilməzdi. Atlantika həmrəyliyi Alyansın üzvlərindən əlavə, digər Avropa

dövlətlərini də əhatə etdi. Yəni, Alyansın qərarı ilə üzvlüyə namizəd olan 10 dövlətin – Albaniya, Bolqarıstan, Xorvatiya, Latviya, Litva, Estoniya, Slovakiya, Sloveniya, Makedoniya və Ruminiya XİN-ləri ortaq bir bəyənnamə ilə Amerika Birləşmiş Ştatlarının liderlik etdiyi terrorla mübarizə kampaniyasına öz dəstəklərini əks etdirdilər [38:s,13].

26 sentyabrda 2001-ci ildə ABŞ-nin Müdafiə Departamenti katibinin köməkçisi Alyans üzvlərinin kəşfiyyat apararaq və terroru maliyyələşdirənlərin izlərinə düşərək Birləşmiş Ştatlara kömək edə biləcəkləri ideasını təklif etdi. ABŞ-nin 3 oktyabr tarixində irəli sürdüyü tələblər 24 saat içərisində qəbul edildi. Bunlara təkmilləşdirilmiş kəşfiyyat mübadiləsi, müttəfiqlərin Avropa ərazisindəki obyektlərinin mühafizəsinin artırılması, limanlara və hava limanlarına giriş, uçuşlara icazə, dəniz qüvvələrinin Aralıq dənizinin şərqində yerləşdirilməsi və s. NATO rəsmi olaraq, oktyabrın 4-də bu tələbləri qəbul etdi, oktyabrın 5-də Baş Katib bu qərarın Vaşinqton Müqaviləsinin beşinci maddəsini işlək vəziyyətə gətirdiyini bildirdi. ABŞ-nin müttəfiqlərindən gözlədiyi dəstəyin nümunəsi olan bu tələblərin əksəriyyəti əslində ikitərəfli qaydada qəbul edilmişdi, lakin onların rəsmi şəkildə tələb edilməsi əhəmiyyətli siyasi mesaj daşıyırdı [38:s,13].

Kanada hökuməti əhəmiyyətli qanunverici sənədlər qəbul etdi. 15 oktyabr 2001-ci ildə "Terrorla Mübarizə Aktı" qəbul edildi. Mahiyyəti terrorçuları müəyyənləşdirmək, təqib etmək, mühakimə etmək və cəzalandırmaq və digər təbirləri əhatə edirdi. Kanada həmçinin BMT-nin terrorla mübarizəyə həsr edilmiş 12 konvensiyasının hamısını ratifikasiya etmişdir.

Avropa Şurasının 21 sentyabr 2001-ci ildəki fövqəladə görüşü ABŞ-nin cavabının leqalığını tanıdı və birlik ölkələrinin öz güclərinə uyğun dəstək göstərəcəklərini bildirdi. Bu mövzuda Britaniyanın 3 üstünlüyü var idi: İlk olaraq, Britaniyanın hal-hazırda sözügedən regionda qüvvələri var idi. İkincisi, onların amerikalılarla yüksək səviyyədə qarşılıqlı fəaliyyətləri var idi. Sonuncusu isə, rəsmi Vaşinqton və Londonun kəşfiyyat agentlikləri arasında inkişaf etmiş xüsusi əlaqə var idi. Ən önəmli fakt isə bu idi ki, Britaniyanın baş naziri Toni Bleyr bu müharibənin həm də Britaniyanın müharibəsi olduğuna inanır və ölkəsini

Vaşinqtonun ayrılmaz bir müttəfiqi olaraq görürdü. Sentyabr ayının əvvəllərində Bleyr belə bir nəticəyə gəlmişdi ki, tədbir görməyin gətirdiyi təhlükələr heç bir tədbir görməməyin gətirdiyi təhlükələrdən daha ağırdır [38:s,22-23].

Əməliyyatların ilk günündən, yəni 2001-ci ilin 7 oktyabrından başlayaraq, ingilis qüvvələri hazır vəziyyətə gətirildi və Taliban mövqelərinə atəş açdılar. Sonradan ingilis xüsusi təyinatlıları həm 2001-ci ilin dekabrında Tora-Borada, həm də 2002-ci ilin martında Anakonda əməliyyatlarında şiddətli döyüşlərdə iştirak etdilər. Rəsmi London Əl-Qaidə terrorçuları ilə döyüşmək üçün təxmini 1500 nəfər əsgər göndərdi. 2002-ci ilin iyulundan etibarən ingilis qüvvələrinin tədricən regiondan çıxarılmağa başlaması Əfqanıstanda təhlükənin azalmağa başladığını göstərirdi [38:s,23].

11 sentyabr hadisələrindən sonra Böyük Britaniya mövcud anti-terror qanunvericiliyini təkmilləşdirilməyi qərara aldı. Bu, 14 dekabr 2001-ci ildə kral tərəfindən təsdiq edilən 2001-ci il tarixli “Anti-terrorizm, Cinayət və Təhlükəsizlik” aktı ilə nəticələndi.

Britaniyanın töhfəsindən başqa, digər Avropa dövlətləri də müharibədə real fəaliyyətlər göstərdilər, baxmayaraq ki, onların göstərdikləri dəstək o qədər də çox deyildi. Berlinin bu məsələdə təmkinli olmağa çalışması səbəbilə, yüzlərlə alman xüsusi təyinatlısının fəaliyyətləri çox vaxt Almaniyada belə unudulur. Məhz bu qüvvələr Kabilin bir çox zonasında yeni hökuməti təhlükələrdən qorumaqda əhəmiyyətli rol oynadılar [38:s,23].

Fransaya gəldikdə, bu ölkənin qüvvələri Herakl əməliyyatı kod adı altında iştirak edirdilər. Bu ölkənin töhfələri kəşfiyyat məlumatları, iki dəniz piyadası bölüyü, xüsusi hücum qrupu (Task Force 473) və 6 ədəd 2000D Miraj (Dassault Mirage 2000) döyüş təyyarəsi oldu. Dekabr 2001 və iyun 2002 tarixləri arasında Fransanın iştirakı 5000 nəfərlik əsgər olaraq hesablanırdı. Onların əksəriyyəti Hind okeanında yerləşdirildi və 2000-ə yaxın gəmini saxlayıb axtarış keçirdilər. Bir neçə yüz nəfəri isə Qırğızıstan ərazisində Manasda və Tacikistan ərazisində Düşənbədə yerləşdirildilər. Onlar 2002-ci ilin martında Əfqanıstan torpaqlarına edilən hava zərbələrində iştirak etdilər [38:s,23].

2002-ci ilin payızına qədər artıq Əl-Qaidə və Taliban az təhlükə təşkil edirdi, lakin Həmid Kərzainin vəzifəsi öz hökumətində müdafiə nazirinin təzyiqi altında idi. Məhəmməd Fəhim əslən tacik idi və bir neçə min əsgərə komandanlıq edirdi. Bu mübarizə özündə daxili etnik münaqişə gizlədirdi ki, bu da Əfqanıstanı yenidən bir anarxiya dövlətinə çevirə bilərdi [38:s,23].

Birləşmiş Ştatlar 11 sentyabr hücumları ilə bağlı Bin Ladeni günahlandırırdı, amma əlində dəqiq bir sübut yox idi. Digər tərəfdən ABŞ elan etdiyi müharibə vəziyyəti ilə bağlı diqqətli addımlar atmalı olduğunun da fərqində idi. Yəni atdığı kəskin addımlar Yaxın Şərqdə radikal islamçıların mövqeyinin güclənməsinə və ABŞ-nin regiondakı müttəfiqlərini itirməsinə səbəb ola bilərdi. Dünya ictimaiyyətini və müttəqlərini inandırmaq üçün dəlillər tapmalı və regionda ittifaqlar yaratma cəhdləri göstərməli idi. ABŞ Müdafiə Departameninin katibi Donald Ramsfeld ərəb ölkələrinə səyahətlər edərək onlardan dəstək və bazalar tələb etdi. Britaniyanın baş naziri Toni Bleyr da oxşar addım atdı, lakin region ölkələrindən konkret olaraq nə qarşı çıxan, nə də hərbi dəstək verən olmadı [18:s,45-46].

Birləşmiş Ştatların bölgədəki ən önəmli müttəfiqi olan Səudiyyə Ərəbistanı da bazalarını ABŞ üçün açmadı, bunun onun üçün çətin vəziyyət yaradacağını bildirdi. Buna baxmayaraq, Talibanı tanıyan 3 ölkədən biri olan Səudiyyə Ərəbistanı Talibanla diplomatik münasibətlərini kəsdi və Talibandan ölkəni dərhal tərk etməsini tələb etdi. Bin Ladenin Səudiyyə vətəndaşı olması və 19 təyyarə quldurundan bəzilərinin ABŞ vizasını Səudiyyə Ərəbistanındakı diplomatik nümayəndəlikdən alması Birləşmiş Ştatların rəsmi Riyada təzyiqini artırdı. Misir ABŞ-dən sübut göstərməsini və beynəlxalq konsensus əldə etməsini istədi. İran xalqı hücum zamanı günahsız insanların ölümünü pislədi və onların acılarını paylaşdı. İran ABŞ-a başsağlığı verdi, lakin sonradan davranışlarında sərtləşməyə başladı. İranın dini lideri Əfqanıstana ediləcək hücuma dəstək verməyəcəklərini açıqladı. Bundan fərqli olaraq, İran prezidenti terrorla mübarizəni dəstəklədi və Talibanın devrilməsini arzuladı [18:s,46].

Əfqanıstana ediləcək müdaxilədə regionda ən çox əhəmiyyət daşıyan ölkələr Hindistan və Pakistan idi. ABŞ hökuməti bu yeni vəziyyət ilə bağlı Hindistana tətbiq etdiyi bütün hərbi və iqtisadi məhdudiyyətləri ləğv etdi. Pakistana isə, ABŞ şirkətlərindən hərbi təyyarə almaqla bağlı qoyduğu sanksiyanı ləğv etdi. Pakistan ABŞ və İngiltərəyə ən çox dəstək verən ölkə idi, lakin sonradan bu ölkədə qarışıqlıqlar meydana gəldi. Ölkədaxili nümayişlər artdı və nəzarətdən çıxmağa başladı. ABŞ bu ölkənin verdiyi dəstəyi iqtisadi cəhətdən mükafatlandırdı və onun borcunu yüngülləşdirmək üçün bəzi addımlar atdı. Belə ki, bu ölkəyə qarşı nüvə silahı sınaqları və 1999-cu il çevrilişindən sonra tətbiq etdiyi sanksiyaları ləğv etdi [18:s,46].

Rusiyanın Əfqanıstana olan müdaxiləyə münasibəti isə gözlənilməz oldu. Belə ki, Rusiyanın buna qarşı çıxacağı düşünülürdü, çünki regionda təsiri azala bilərdi. Gözlənilən baş vermədi. Putin 11 sentyabrdan 10 gün sonra beynəlxalq terrorizmə qarşı mübarizədə Birləşmiş Ştatlara 5 madddəli dəstək planını açıqladı. Planın mahiyyəti isə, kəşfiyyat mövzusunda əməkdaşlıq etmək və Əfqanıstan müdaxiləsində lazım olan yardımı göstərməyi əhatə edirdi. Rusiya bir bölük əsgərini Tacikistan sərhəddinə göndərdi. Beləliklə, ABŞ və İngiltərədən sonra bölgəyə əsgər göndərən ilk ölkə oldu. Bundan əlavə, hava məkanını açdı, Qırğızıstan və Özbəkistan bazalarından istifadə üçün səy göstərdi və ərazi haqqında kəşfiyyatın aparılmasında iştirak etdi. Qarşılığında isə, çeçenlərin Aİ və NATO siyahılarında terrorist kimi qeyd olunmalarını istədi. Bu siyasəti ilə Rusiya Aİ ilə münasibətlərini yaxşılaşdırmaq üçün fürsət əldə etdi, NATO ilə yaxınlaşmağa başladı [18:s,46-47].

Vladimir Putin təkcə hadisələrdən sonra Buşa ilk zəng edən deyil, həm də bu hadisələrdən necə faydalana biləcəyini ilk anlayan şəxs idi. Rusiya artıq beynəlxalq münasibətlərdə aktiv iştirak edən aktor və Mərkəzi Asiyada bazalara və regiondakı terrorizmlə bağlı kəşfiyyata ehtiyac duyan ABŞ-nin əvəzedilməz müttəfiqi olacaqdı. Onu da qeyd edək ki, Rusiya Mərkəzi Asiya regionuna ABŞ-nin sürətlə yerləşdiyi dövrdə regionda öz nüfuzunu itirməməli olduğunu da tezliklə anladı [38:s,39-40].

Almaniya və Yaponiya da regionda fəallıqlarını artırmaq və İkinci Dünya Müharibəsindən bu yana mövcud olan "xaricə əsgər göndərmək" qadağasını qüvvədən düşürmək üçün parlamentin icazəsi ilə bölgəyə əsgər göndərdi. İsrail isə, bu ittifaqda yer almadı, çünki ABŞ və İngiltərə regionun müsəlman dövlətlərinin də dəstəyini almaq istəyirdi. Yəni, İsrail ABŞ-nin yanında olarsa, bu plan ləğv ola bilərdi [18:s,47].

Bu müddət ərzində Çinlə münasibətlərdə yaxınlaşma baş verdi. Birləşmiş Ştatlar Çinin Dünya Ticarət Təşkilatına qəbulunun önünü açdı. İki ölkə arasında kəşfiyyat mübadilələri baş tutdu [18:s,47].

Nəticə olaraq, qurulan ittifaqda ABŞ, İngiltərə, Pakistan, Hindistan, Çin, Rusiya, Özbəkistan, Tacikistan, Türkiyə və Avropa dövlətləri var idi. İlk addım isə, Şimal İttfaqını gücləndirmək idi [18:s,47].

Terrorizmə qarşı mübarizə üçün sonrakı səylər ASEAN və digər Şərqi Asiya ölkələrindən gəldi. Onlar xüsusilə, polis və kəşfiyyat agentkiləri arasında koordinasiyanın inkişaf etdirilməsində əhəmiyyətli rola malik idilər. 2002-ci ilin noyabrında Manilada keçirilən ASEAN ölkələrinin ordu başçılarının görüşü onların terrorizmlə mübarizədə töhfələrinin bir nümunəsi idi.

Sakit okean hövzəsi ölkələrinin fəaliyyətlərinə misal olaraq, Avstraliya Əfqanıstana xüsusi təyinatlı qüvvələr və dəstək təyyarələri göndərdi. Avstraliyanın Kral hərbi hava qüvvələri Qırğızıstanın Manas aviabazasına yerləşdirildi. Yaponiya nəqliyyat ehtiyaclarını qarşılamaq üçün nəqliyyat təyyarələri təsis etdi. Bundan əlavə, ABŞ və Britaniya gəmilərini dənizdə yanacaqla təmin etməyi nəzərdə tutan qanunverici aktı sürətli şəkildə qəbul etmək üçün hərəkətə keçdi. Sonradan isə, bu dəstəyin müddətini əlavə 6 ay da uzatdı. Koreya dəniz və hava nəqliyyatını təmin etdi. Bununla yanaşı, Qırğızıstanda səyyar səhra xəstəxanası təşkil etdi [37].

Yeni Zelandiya Əfqanıstana xüsusi hava qüvvələrini göndərdi və bu ərazidə sabitliyin yaranmasında əhəmiyyətli səy göstərdi. C-130 təyyarələri ilə humanitar aero-nəqliyyatın həyata keçirilməsi də bu ölkənin fəaliyyətlərinə aiddir. Öz terror problemləri ilə başı qarışıq olan Filippin isə Birləşmiş Ştatlar təyyarələrinə qeyd-

şərtsiz uçuş icazəsi tanıdı və baza dəstəyi verdi. Terror hadisələrinin qətiyyətlə qınayan Malayziya isə 11 sentyabrdan bu yana olan uçuçlar üçün bütün müraciətlərə razılıq verərək koalisiyaya öz dəstəyini göstərdi [37].

2001-ci il 11 sentyabr hadisələrindən sonra Corc Buş hökuməti vaxt itirmədən qlobal miqyasda terrora qarşı müharibə elan etdi və dünya ölkələrini onlara dəstək olmağa çağırdı. Corc U. Buş dünya səviyyəsində diplomatik, hərbi, iqtisadi, kəşfiyyat və digər fəaliyyətləri əlaqələndirərək terrora qalib gəlməyə çalışan dövlətlər şəbəkəsini formalaşdırdı. Talibanın idarəsi altında olan Əfqanıstan istisna olmaqla, bütün dünya dövlətləri onun çağırışına müsbət cavab verdi [39].

Bu mübarizə çərçivəsində ilk dəfə NATO Nizamnaməsinin 5-ci maddəsi həyata keçirildi. NATO-ya üzv olan 16 ölkə Birləşmiş Ştatlara öz qoşunları və hərbi texnikası ilə dəstək oldu. 197 ölkə isə kampaniyaya və onun məqsədlərinə dəstək ifadələrini səsləndirdilər [39].

89 ölkə uçuş icazəsi, 76 ölkə eniş hüququ, 23 ölkə isə hücum əməliyyatlarında iştirak edən ABŞ qüvvələrinə ev sahibliyi etməyi qəbul etdi. 136 ölkə hərbi yardım təklif etmiş, 142 ölkə terrorçuların və terror təşkilatı ilə əlaqəsi olduğu düşünülən şəxslərin maliyyə aktivlərinin dondurulması ilə bağlı sərəncam vermişdir. NATO və ANZYUS kimi təşkilatlar qısa bir müddətdə ABŞ-ni dəstəkləməyi nəzərdə tutan müqavilə öhdəliklərinə müraciət etdilər [39].

## 2.2. ABŞ-nin Əfqanıstan və İraqa hərbi müdaxiləsi

11 sentyabrda baş verən hadisələr Birləşmiş Ştatların xarici siyasətində ciddi dəyişikliklərə gətirib çıxardı. Ölkənin təhlükəsizlik anlayışı dəyişmiş, əsas düşmən qismində terrorizm görülməyə başlanmışdı. Radikal İslam da təhkükə olaraq görülməyə başladı. Bunun əsas səbəbi Əl-Qaidə üzvərinin Yaxın Şərq mənşəli olması və müsəlman simvolları daşımaları idi. Bu da ABŞ-nin öz xarici siyasətini formalaşdırarkən bu amilləri də göz önünə alması ilə nəticələndi [16:s,148].

Hücumlardan sonra ABŞ zərərçəkən dövlət mövqeyində olduğu üçün özünümüdafiə haqqı formalaşdırdı. Birləşmiş Ştatlar hücumun onun özünü hədəfə almış olsa da, bütün demokratik və sivil cəmiyyətlərə qarşı həyata keçirildiyini irəli sürdü. Onun 11 sentyabr sonrası çıxışlarının əsas motivləri terrorçular və onlara dəstək verənlərə qarşı mübarizə ideasına əsaslanırdı [16:s,148].

11 sentyabrdan sonra ABŞ-nin ilk diqqət mərkəzi Əfqanıstan oldu. Belə ki, iddialara görə, plan Əl-Qaidə tərəfindən tərtib edilmiş və təyyarələri qaçıran 19 quldurdan bəziləri isə Əfqanıstanda təlim keçmişdi. Bu səbəblə, Buş administrasiyası ilk olaraq, Əl-Qaidəni dağıtmaq və Əfqanıstandan Talibanı qovmaq strategiyasına fikrini cəmlədi. Buş hökuməti Taliban lideri Molla Məhəmməd Ömərdən ölkəsində gizlənən bütün Əl-Qaidə üzvlərini ABŞ-yə təslim etmələrini tələb etdi. Bu tələbləri rədd edilən ABŞ Əfqanıstana müharibə planını gerçəkləşdirməyə başladı [44].

26 sentyabrda Mərkəzi Kəşfiyyat İdarəsinin (MKİ) xüsusi komandasının (Jawbreaker) Əfqanıstana gəlişi ilə gizli şəkildə kampaniya başladıldı. Komanda əfqan əsilli anti-Taliban müttəfiqləri ilə birlikdə Taliban rejiminin devrilməsinə dair strategiyalar hazırladı. ABŞ rəsmiləri ümid edirdilər ki, əfqanlarla əməkdaşlıq etsələr, bu zaman buraya böyük sayda qüvvə yerləşdirməli olmayacaqlar. Xüsusilə, Pentaqon rəsmiləri Əfqanıstanın işğalının təxminən 20 il əvvəl SSRİ-nin etdiyi kimi uzunmüddətli bir işğala çevrilməsi mövzusunda narahat idilər. Birləşmiş Ştatlar ilk növbədə tacik əsilli Məhəmməd Rəhim və özbək əsilli Əbdül Rəşid Dostumun rəhbərik etdiyi Şimal Alyansına güvənirdilər. Bundan əlavə, Əfqanıstanın cənubunda Talibana müxalif olan puştunlara və Həmid Kərzai adlanan və az tanınan qəbilə lideri ilə əməkdaşlığa qərar verdilər [44].

MKİ-nin komandasına tezliklə Birləşmiş Ştatlarının və Böyük Britaniyanın xüsusi təyinatlı kontingentləri qoşuldular. Onlar əfqanlara məsləhətlər verir və onları silah və avadanlıqlarla təmin edirdilər [44]. Əfqanıstana müdaxilə rəsmi olaraq 7 oktyabr 2001-ci il tarixində başladı. Əməliyyat “Davamlı Sülh Əməliyatı” adlanırdı və məqsədi buradakı rejimi dəyişdirmək idi.

7 oktyabr 2001-ci ildə başlayan bu müdaxilənin ilkin mərhələsi ABŞ və Britaniya hərbi təyyarələrinin Əl-Qaidə və Talibana qarşı hücumları ilə davam edir. 12 gün sonra isə quru qoşunlarının ilk hissəsi əraziyə gəlir. Quruda gedən döyüşlər daha çox Taliban və onun Əfqanıstadakı müxalifləri arasında gedirdi. Oktyabr ayı ərzində ABŞ Qəndəhar ərazisinə 1000-dən çox dəniz piyadası göndərdi.

Noyabr ayının ilk yarısında Taliban əhəmiyyətli məğlubiyyətlər alır. 9 noyabr 2001-ci ildə Məzari-Şərif ərazisində gedən qarşıdurmalarda Ə.R.Dostumun qüvələrinə məğlub olaraq dağılmağa başlayır. 11-14 noyabr tarixlərində bir sıra şəhərlərdə alınan məğlubiyyətlər Talibanın dayaqlarını sarsıdır.

Dekabr ayında isə Tora-Bora mağarası ətrafında döyüşlər gedir. 3 dekabrdan 17 dekabra qədər davam edən döyüşün nəticəsində Bin Laden Pakistana qaçır. Dekabrın 17-də Bin Ladenin 20 adamı əsir götürülür.

Müharibənin gedişatında əhəmiyyətli hadisələrdən biri də Anakonda əməliyyatı idi. Əməliyyat sentyabr hadisələrindən sonra başladılan terrora qarşı mübarizə çərçivəsində Əfqanıstanda həyata keçirilən ən böyük döyüş hesab olunur. 2-10 mart 2002-ci il tarixlərində Şah-i-Kot vadisində baş tutan əməliyyatda 2000 nəfərlik koalisiya qüvvələri, 900-dən çox amerikan əsgəri, 200 ABŞ xüsusi təyinatlısı və digər ölkələrdən olan 200 xüsusi əməliyyat qüvvələri iştirak edirdi. Bu ölkələrə Avstraliya, Kanada, Almaniya, Danimarka, Fransa, Yeni Zellandiya, Norveç və Əfqanıstan aid idi. Qarşı tərəf isə, əfqan əsilli olmayan Əl-Qaidə və Taliban üzvlərindən ibarət idi. Onlara bir sıra tacik, özbək, ərəb və çeçen əsilli qüvvələr də qoşulmuşdu. Əməliyyatın getdiyi Şah-i-Kot vadisi mürəkkəb relyefə malik idi [13: s,72-73]. Əməliyyatın əsas məqsədi 800-ə yaxın sayları olan Taliban və Əl-Qaidə döyüşçülərini məğlub etmək idi. Anakonda əməliyyatından sonra Pentaqon rəsmiləri hərbi və kəşfiyyat resurslarını İraqa doğru yönəltməyə başladılar.

Əfqanıstanda qazandığı zəfər ABŞ-ni qane etmədi. Bunun səbəbi o idi ki, Taliban idarəçiliyinə son qoyulmuşdu, lakin tamamilə aradan qaldırılmamışdı. Digər tərəfdən Əfqanıstan müdaxiləsində Şimal İttifaqının gücündən geniş istifadə etdiyi üçün qələbəni tam olaraq öz adına yaza bilmirdi. Yəni, Taliban

devrilmişdi, lakin ABŞ öz gücünü istədiyi kimi nümayiş etdirə bilməmişdi. Daha önəmlisi isə, Əl-Qaidə ləğv edilə və Bin Laden tutula bilinməmişdi. Belə ki, bu təşkilat Əfqanıstan və Pakistan dağlarına çəkilmişdi ki, bu ərazilərə əməliyyatlar təşkil etmək çox çətin idi. ABŞ isə, əvvəlki nüfuzunu qazanmalı idi. Beləliklə, bütün yollar İraqa qarşı müdaxiləyə aparırdı [18:s,48-49].

İraqla münasibətlərin gərginləşməsi və bunun müharibəyə gətirib çıxması isə, təxmini 10 il öncə Ata Corc Buşun dövründə də özünü göstərmişdi. Belə ki, 1990-cı ilin 2 avqustunda İraqın Küveytə hücumundan sonra ABŞ bu ölkədən neft idxalına embarqo qoydu. Avqustun 17-də isə müharibə elan etdi. Əslində Birləşmiş Ştatlar embarqo müddətini uzaraq, daha dinc bir həll tapa bilərdi, lakin müharibəni üstün tutdu. 27 fevral 1991-ci ildə Küveyti ələ keçirən ABŞ İraqdakı Bəəs rejimini isə saxladı.Çünki, həmin dövrdə İraq region üçün təhlükə hesab olunurdu. Bu da region dövlətlərini ABŞ-yə yaxınlaşdıra və sonuncunun regionda nüfuzunu gücləndirə bilərdi. Sözügedən dövrdən sonra İraqa qarşı embarqo ciddi şəkildə nəzarətə alınmış və bu ölkədə silah müfəttişləri (və ya nəzarətçiləri) fəaliyyət göstərməyə başladı. Embarqo səbəbiylə iqtisadi vəziyyəti kifayət qədər çətinləşən İraq BMT qərarlarına uyğun olaraq, sadəcə qida və dərman almaq üçün neft satmağa razı olur [20].

Körfəz müharibəsindən sonra, 1991-ci idə Təhlükəsizlik Şurası tərəfindən məqsədi İraqın hərbi fəaliyyətlərini izləmək olan BMT Xüsusi Komissiyasının (UNSCOM) əsası qoyuldu. Əlavə olaraq, Beynəlxalq Atom Enerjisi Agentliyinə isə, İraqın malik olduğu irəli sürülən nüvə silahına nəzarət üçün öhdəlik verildi. Xüsusi Komissiyanın fəaliyyəti nəticəsində 1994-cü ilin sonundan etibarən, İraqdakı kimyəvi silahların hamısı məhv edilmiş və ölkə ərazisində bioloji silah tapılmamışdı. Komissiyanın sədri isə, İraqın artıq qonşu dövlətlər üçün təhlükə təşkil edəcək bir gücə malik olmadığını elan etdi. Yəni, ABŞ-nin İraqı işğal etmək üçün irəli sürdüyü KQS tezisi əslində 1994-cü ildə öz əsasını itirmişdi [10:s,10].

Adı çəkilən müharibə ilə 2003-cü ildə başlayan müharibə arasındakı dövrdə də İraq ABŞ tərəfindən bir çox hücumlara məruz qaldı. Tətbiq edilən embarqo İraqı KQS-lərin istehsalından çəkindirməkdən çox, ölkə əhalisinə zərər verdi.

Xalq isə yaşadıqları səfalətin günahını BMT sanksiyalarında görərək Bəəsçi rejimə daha çox dəstək verdi. 2000-ci il seçkilərində qalib gələn Corc Uoker Buşun əksəriyyəti yəhudi əsilli şəxslərdən ibarət olan yeni hökuməti təkcə ölkənin xarici siyasətinə yön vermədi, həm də Yaxın Şərq siyasətini birbaşa olaraq formalaşdırdı. Onların fikrinə görə, Birləşmiş Ştatların Yaxın Şərqlə bağlı maraqlarının reallaşması üçün yeni müharibə mütləq idi. Xüsusilə də, 11 sentyabr hücumlarından sonra Buş hökuməti xalqın qorxularını və milliyyətçi hisslərini alovlandıran propaqandalar ilə cəmiyyəti bu fikrə öyrəşdirdi. Hücumlardan sonra Birləşmiş Ştatlar terrorizmə qarşı aparacaqları mübarizənin beynəlxalq terrorizmə dəstək verən İraq və digər ölkələri əhatə edəcəyini bildirdi. 2002-ci ilin yanvarında baş tutan çıxışında " şər oxu" olaraq adlandırdığı ölkələrdən biri də məhz İraq idi. Bütün 2002-ci il ərzində də bu müharibə üçün fiziki və psixoloji bir zəmin hazırlandı. Buş hökuməti bu hazırlıqlara əsas qazandırmaq üçün İraqın KQS-lər ilə regionda və dünyada sülhə təhlükə təşkil etdiyinə və BMT qərarlarının əksinə ölkədə silah nəzarətçilərinin fəaliyyətinə icazə verməməsi kimi arqumentlərdən istifadə etdi [20].

ABŞ-nin İraqla bağlı bu planları beynəlxalq hüquqa zidd idi və bu müdaxilə beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənmirdi. İraq isə, öz növbəsində Birləşmiş Ştatlara hər hansı bir bəhanə verməmək üçün BMT qərarlarına uyğun hərəkət edirdi. ABŞ özünə və beynəlxalq təhlükəsizliyə hədə təşkil etdiyini düşündüyü ölkələrə BMT qərarı olmadan müdaxilə etməyin leqal olduğunu müdafiə edirdi. İraq bu əsasları heçə çıxarmaq üçün isə sahib olduğu KQS-ləri sıradan çıxarmışdı. Birləşmiş Ştatların gətirdiyi digər bir əsas isə İraqa sülh, demokratiya və insan hüquqları gətirəcəyi idi. Qeyd etmək lazımdır ki, bir ölkəni işğal edərək oraya demokratiya gətirmək üçün, həmin ölkə demokratiya nəzəriyyəsinin əsas şərtlərinə (iqtisadi inkişaf, etnik birlik, güclü dövlət qurumları, ölkənin keçmişində demokratiya təcrübəsi və s.) malik olmalıdır. İraqın bu xüsusiyyətlərə sahib olmadığını isə hamı tərəfindən bilinirdi [20].

27 yanvar 2003-cü ildə öz heyətləri ilə İraqa gedən Atom Enerjisi Agentliyinin sədri Məhəmməd əl-Bəradi və BMT Monitorinq və Nəzarət Komissiyasının (UNMOVİC) başçısı Hans Bliksin verdiyi hesabatlar da İraqda

irəli sürüldüyü kimi KQS-lərin olmadığını göstərdi. Bütün bunlara baxmayaraq ABŞ müharibə mövzusunda qətiyyətli idi [10:s,10].

ABŞ-nin Yaxın Şərq siyasətinin 3 əsas hədəfi var idi:

1. Regionunun sərvətlərinin region daxilindən və ya xaricindən olan ABŞ-yə müxaliflik təşkil edən hər hansı bir dövlətin nəzarətinə keçməməsi;
2. Regionun neft ehtiyyatlarının nəzarət altına alınması;
3. İsrailin mövculuğunun və təhlükəsizliyinin qorunması. [20].

Qeyd edək ki, neft amili ABŞ-nin İraqa qarşı yürütdüyü siyasətdə əhəmiyyətli faktorlardan biri olsa da, ən əhəmiyyətlisi deyildi. Əsas element təhlükəsizlik amili idi. Burada təhlükəsizlik deyiləndə ABŞ-nin özünün və İsrailin təhlükəsizliyi nəzərdə tutulurdu [18:s,50].

Soyuq müharibədən sonra yeganə super güc olan ABŞ həm regional, həm də qlobal tarazlığı qorumalı olduğu fikrini özünə mənimsəmişdi. Bu istiqamətdə isə İranla müharibə aparan, Küveyti işğal edən və regionda genişlənmə siyasəti tətbiq edə Səddam rejimini devirmək və silahsızlaşdırmaq düşüncəsinə inanırdı. 11 sentyabrın gətirdiyi şəraitdən faydalanan Buş hökumətinin silah nəzarətçilərinin İraqdakı fəaliyyəti ilə qane olmaması bu ölkəyə olan müdaxiləsinin əsas səbəblərindən biridir. Nüvə silahı Səddamı qonşu dövlətlərə hücum etməyə və Orta Şərq regionuna hakim olma istəklərinə səbəb ola bilərdi. Nüvə silahı həm də onun hakimiyyətini gücləndirə və Ərəb dünyasına ağalıq etmə cəhdlərinə gətirib çıxara bilərdi. Səddam hökumətinin nüvə silahını inkişaf etdirməsinə mane olunmasa, bu silahların bir hissəsi terroristlərə verilə və Birləşmiş Ştatlara qarşı istifadə oluna bilərdi [18:s,50].

Bundan əlavə Körfəz müharibəsi zamanı İsrailə 39 ədəd raket atan və İsrailə qarşı olan Səddam rejimini devirmək və demokratik İraq dövləti qurmaq həm regiona ABŞ-nin yerləşməsi, həm də İsrail və ABŞ-nin maraqlarının təmin olunması demək idi. Bu mövzuda yəhudi lobbisi də Birləşmiş Ştatların xarici siyasətinə əhəmiyyətli təsir göstərirdi. Belə ki, yəhudi lobbi təşkilatları İraqa müdaxilə məsələsində Pentaqon və Xarici İşlər Nazirliyi üzərində ciddi təsirə malik olmuşdular [18:s,50].

Son olaraq, İraqa qarşı müharibə bu ölkədə ABŞ yönümlü bir rejim qurulmasına və rəsmi Vaşinqtonun regionun xəritəsini yenidən formalaşdırmasına gətirib çıxaracaqdı. Bu da öz növbəsində, Ərəb dünyasında ABŞ əleyhdarlığının artmasını əngəlləyəcəkdi [18:s,50].

Yuxarıda qeyd etdiyim kimi Birləşmiş Ştatların Yaxın Şərqə olan maraqlarında bu regionun zəngin karbohidrogen yataqlarının da təsiri vardı. Region dünyanın neft ehtiyyatlarının 65 faizinə, təbii qaz rezervlərinin isə 36 faizinə sahib idi. Bundan əlavə neft ehtiyyatlarını tapma və emal etmə xərclərinin ucuz başa gəlməsi də ABŞ-ni cəlb edirdi. İraqın işğalı ilə Vaşinqton buranın Yaxın Şərq regionunun rezervlərini nəzərətə almış olacaq, bununla da Yaxın Şərqin neftiylə öz neft ehtiyaclarının böyük bir hissəsini qarşılayan Çinin siyasi inkişafının qarşısını alacaqdı [18:s,53].

Bütün bunları reallaşdırmaq üçün Birləşmiş Ştatlar beynəlxalq hüququ tapdalayaraq və beynəlxalq ictimaiyyətini qarşısına alaraq, 20 mart 2003-cü ildə, səhər saatlarında İraqa qarşı müharibəyə başladı [20].

İraqa qarşı müharibəyə başlamadan öncə ABŞ ilk növbədə bu ölkədəki müxalifəti dəstəkləməyə başladı. Buş hökuməti müxtəlif qüvvələrdən ibarət olan İraq müxalifətinə 92 milyon dollar yardım göstərmişdi. İraqlı müxaliflər bunun ardınca London şəhərində konfransda bir araya gəldilər.

Müxaliflərin arasında mövcud olan ziddiyyətlər London görüşündə də özünü göstərməyə davam etdi. Əsas narazılıq mövzularından biri qurulacaq dövlətin hansı şəkildə olacağı idi. Məsələn, şiələr İslamın qanunvericiliyin əsasını təşkil etməsi barədə israr edirdilərsə, kürdlər federalizmi dəstəkləyirdi. Digər yandan İraq Milli Şurasının sədri Əhməd Çələbi sürgündə İraq hökumətini qurmaq fikri ilə çıxış etdi. Onun bu ideası kürdlər və şiələr tərfindən qəbul edilmədi. Konfransın sonunda 70 nəfərdən ibarət mütəşəkkil “İzləmə Komitəsi” yaradıldı.

London konfransında yaradılan bu komitə ilk iclasını Şimali İraqda, Səlahəddin şəhərində 26-28 fevral 2003 tarixlərində keçirdi. Onsuz da bir neçə yerə bölünən müxalifət burada da ziddiyətli fikirlərə davam etdi. Belə ki, müxalifət təşkilatlaının bəziləri heç iclasa qatılmadılar. İclasda iştirak edənlər isə,

müharibədən sonra İraqda qısa bir müddətliyinə də olsa ABŞ idarəçiliyinə qarşı çıxdılar.

Müxaliflərin öz aralarında toplanaraq qərarlar alması və amerikan idarəçiliyinə qarşı ifadələri Birləşmiş Ştatlar tərəfindən müsbət qarşılanmadı. Prezident Buşun xüsusi İraq təmsilçisi Zalmay Xəlilzad iraqlı müxaliflərin toplanaraq bəyənnamələr yaymaqlarını xoş qarşılamadı və buna son vermələrini bildirdi. Buş hökuməti isə Səddam rejiminin devrilməsindən sonra İraqı amerikalı bir generalın idarə edəcəyini elan etdi. İraqlı müxaliflərin heç birinin davamlı bir hökumət qura bilməyəcəyi qərarına gələn Buş, bu ölkəni qeyri-müəyyən bir müddət üçün hərbi işğal altında tutmaq lazım olduğunu vurğuladı.

Bu strategiya göstərdi ki, Amerika iraqlı müxalifəti ancaq İraq daxilində istifadə edəcəyi bir amil olaraq görür. Sonradan baş verən proseslər də bunu bir növ təsdiqləmiş oldu. Belə ki, ABŞ müharibə strategiyası ilə bağlı heç nəyi müxaliflərlə bölüşmürdü. Bu duruma etiraz edən Əhməd Çələbi qeyd edirdi ki, ABŞ-nin müxalifət ilə əməkdaşlığının azlığı onu təəccübləndirir [9:s,383-386].

İraqa müdaxilədən 4 ay əvvəl, 2002-ci ilin 8 noyabrında qəbul edilən BMT Təhlükəsizlik Şurasının 1441 saylı qətnaməsi İraqdan silah nəzarətçilərini yenidən qəbul etməyi və əvvəlki qətnamələrə əməl etməyi tələb edirdi. İraq görüntü olaraq qətnaməyə əməl edirmiş kimi görünürdü, lakin 2003-cü ilin əvvəlində Corc U. Buş və Böyük Britaniyanın baş naziri Toni Bleyr bildirdilər ki, İraq BMT-nin yoxlamalarına mane olmaqda davam edir və qadağan olunmuş silahları saxlayır. Digər dünya liderləri, məsələn Fransa prezidenti Jak Şirak, Almaniya kansleri Gerrard Şroder isə, İraqla əməkdaşlığın inkişaf edəcəyinə inanırdılar və yoxlamaların vaxtını uzadaraq, İraqa daha çox vaxt verməyi tövsiyyə edirdilər. Buna baxmayaraq, 2003-cü ilin martın 17-də BMT-nin diplomatik səylərini boş hesab edən Corc U. Buş artıq diplomatiyaya son qoydu. Səddama ultimatum verdi və İraqı tərk etmək üçün ona 48 saat vaxt verdi [44].

Səddam Hüseyn bu tələbi rədd etdi. Ona verilən 48 saatlıq müddət bitdikdən təxmini 90 dəqiqə sonra ABŞ və müttəfiq qüvvələri İraq üzərinə hücuma keçdi. Müharibə ABŞ təyyarələrinin Səddamın içində olduğu təxmin

edilən bunkerə bir neçə dəqiq atışlar etməsi ilə başladı. Ardınca, bəzi hökumət və hərbi hədəflərə qarşı hava zərbələri həyata keçirildi. Bir neçə gün ərzində ABŞ qüvvələri cənub tərəfdən, Küveyt ərazisindən İraqı işğal etdilər. İraq qüvvələrinin əksəriyyəti koalisiya qüvvələrinə müqavimət göstərməməyi seçdi. ABŞ qüvvələri İraqın cənubundan şimalına irəliləyərkən onlara əsas müqavimət Bəəs Partiyasının “Səddamın Fədailəri” adı ilə tanınan tərəfdarları tərəfindən göstərildi. Cənubda yerləşən Bəsrə şəhəri ətrafında mövqelənən Britaniya qüvvələri də nizamsız hərbi qüvvələrin oxşar müqaviməti ilə rastlaşdılar [44].

Nəhayət, eyni gün Bəsrə şəhəri bir neçə gün əvvəl şəhərə daxil olmuş ingilis qüvvələri tərəfindən mühafizəyə alındı. Şimal tərəfdən digər böyük bir cəbhə açmaq cəhdləri isə alınmadı. Çünki, Türkiyə hökuməti ABŞ zirehli qüvvələrinə Şimali İraqda yerləşmək üçün Türkiyə ərazisindən keçməyə icazə vermədi. Bununla belə, amerikan paraşütçülərinin bir alayı əraziyə eniş edə bildi. Amerikan xüsusi təyinatlı qüvvələri kürd peşmərgə döyüşçüləri ilə birləşərək şimal şəhərlərini – aprelin 10-da Kərkük və 11-də Mosulu ələ keçirdilər. Aprelin 13-də isə rejimin son böyük dayaq şəhəri olan, Səddamın doğma şəhəri Tilkit az bir müqavimətlə ələ keçirildi. Rejimə sadiq qruplardan ibarət ayrı-ayrı birləşmələr sonrakı günlərdə döyüşləri davam etdirsələr də, ABŞ prezidenti mayın 1-də əsas döyüşlərin bitdiyini bildirdi [44].

Bəəs rejiminin süqutundan sonra İraqın böyük şəhərlərində dövlət qurumlarına qarşı qarət və yağmalama hadisələri artmağa başladı. Qanunun və asayişin bərpası işğalçı qoşunlar üçün ən çətin vəzifələrdən biri idi. İşğalçı birliklərə qarşı hücumlar artmağa başladı və getdikcə əsl partizan müharibəsinə çevrildi. Buş administrasiyası bu ifadəni işlətməkdən çəkinir və əvəzində “məzhəb qarşıdurması” terminini istifadə edirdi. Buna baxmayaraq, münaqişə getdikcə vətəndaş müharibəsi kimi təyin olunmağa başlandı [44].

Səddam Hüseynə gəldikdə isə, ABŞ qüvvələri onu öz doğma şəhəri olan Tilkitdə tapdılar. 2005-ci ilin oktyabrında həbs edildi və İraq Ali Tribunalında mühakimə olundu. Bu məhkəmə keçmiş İraq məmurlarını mühakimə etmək üçün yaradılmışdı. Hüseyn və bir neçə müttəhim 1982-ci ildə Əl-Düceyl şəhərində 148

şiənin öldürülməsində təqsirli bilindilər. Məhkəmə prosesi 9 ay davam etdi. Nəhayət, 2006-cı ilin iyulunda fasilə edildi, 6 noyabrda isə hökm çıxarıldı. O, qeyri-qanuni həbslər, deportasiya, işgəncələr edilməsi, qəsdən adam öldürmə və xalqına qarşı cinayətlər kimi maddələrlə təqsirli bilindi. 30 dekabrda isə ölüm hökmü həyata keçirildi.

2003-cü ilin ilk döyüşlərində koalisiya qüvvələrinin itkiləri az idi. Belə ki, bu say mayın 1-nə qədər sadəcə 150 nəfər idi. Bununla belə, ABŞ əsgərlərinin ölümləri sonradan artdı və 2004-cü il prezident seçkiləri ərəfəsində 1000-ə çatdı. 2007-ci ilin əvvəllərində isə 3000 nəfəri keçdi. Əlavə olaraq, digər koalisiya ölkələrindən də bir neçə yüz əsgər öldürüldü. İraq tərəfdən ölənlərin sayı isə qeyri-müəyyən idi. Hesablamalardan birinə əsasən, müharibə başlayandan 2006-cı ilin oktyabrına kimi onların ümumi sayı 650 min nəfərdən çox idi. Digər mənbələr isə təxmini eyni dövr üçün 40-50 min kimi bir say göstərir [44].

Qarşıdurmalar davam etdikcə və itkilərin sayı artdıqca amerikalıların çoxu, hətta əvvəl müharibə tərəfdarı olanlar belə, Buş administrasiyasını tənqid etməyə başladılar. Onlar İraqın işğalının səhv addım olduğunu bildirirdilər. Həmçinin xəbərlərdə Bağdadın Əbu-Qreyb həbsxanasında amerikan əsgərlərinin iraqlılara qarşı zorakılıq etdiyi şəkillərin yayılması ABŞ ilə bağlı ictimai rəyi daha da zədələdi. Digər tərəfdən, 11 sentyabr hücumlarını araşdırmaq üçün yaradılan 9/11 komissiyası 2004-cü ilin iyulunda bildirdi ki, Bəəs hökuməti ilə Əl-Qaidə arasında "ortaq əməliyyat əlaqəsi"nə dair heç bir sübut yoxdur. Bu isə ABŞ hökumətinin müharibə üçün gətirdiyi əsaslardan birinə birbaşa zidd idi [44].

Birləşmiş Ştatların müharibədən əvvəlki əsasladırmalarından bir digəri də müzakirə mövzusuna çevrildi. Belə ki, 9/11 komissiyası İraq ərazisində KQS-lərə dair bir iz tapılmadığını elan etdi. 2004-cü il prezident seçkiləri zamanı da müharibə əsas məsələlərdən biri idi. Seçkilərdə Corc Buş az fərqlə yenidən prezident seçildi. Sonrakı bir neçə il ərzində də Amerikan əhalisinin müharibəyə müqaviməti artdı. Qısa zamanda müharibənin düzgün addım olduğuna inanan çox az amerikalı qalmışdı [44].

Onu da qeyd edim ki, İraqın işğalı həm Birləşmiş Ştatlar və Aİ arasında, həm də Aİ-nin özünün daxilində olan müəyyən fikir ayrılıqlarını üzə çıxardı. Aİ müharibə öncəsində və sonrasında iki bloka bölünmüş kimi idi. Bunlardan birincisi, Britaniyanın başçılıq etdiyi müharibə tərəfdarı olan qrup, digəri isə Fransa və Almaniyanın liderliyində olan müharibəyə qarşı olan qrup. Britaniyanın baş naziri T. Bleyr "Atlantika Alyansı ilə fikir ümumiliyi olmalıdır" fikrini tez-tez vurğulayırdısa, Fransa prezidenti Jak Şirak isə "çoxqütblü dünya" və "Aİ-nın ABŞ gücünə qarşı tarazlayıcı amil olması" ifadələrini işlədirdi. İtaliya, Portuqaliya, İspaniya və bəzi Mərkəzi və Şərqi Avropa ölkələri Bleyrin ; Almaniya, Belçika, Niderland, Lüksemburq kimi Avropa dövlətləri, Rusiya və bir çox ərəb dövlətləri isə Şirakın fikrini dəstəkləyirdi. Hətta o dövrün Fransa XİN-i Dominik de Vilyep 14 fevral 2003-cü il tarixində təşkil olunacaq BMT TŞ iclası öncəsində vuğulamışdı ki, rəsmi Paris ABŞ-ın İraqda müharibə yaratma cəhdlərinə qarşıdır.

Müharibə sonrası İraqın yenidən qurulması zamanı da bu ziddiyyətlər davam etdi. Fransanın fikrincə İraqın inşasında baş rolda BMT olmalı idi. ABŞ isə, BMT-nin əhəmiyyətli rolunu qəbul edirdi, lakin bunun məhdud olmalı olduğunu düşünürdü [10:s,10-11].

## 2.3. ABŞ-nin xarici siyasətdə hərbi gücdən istifadəsinin regiona təsiri

11 sentyabr hadisələrindən sonra ABŞ Əfqanıstana hərbi müdaxilə etdi və buradakı Taliban rejimini devirdi. Talibanın devrilməsindən sonra gündəmə gələn əsas mövzu Əfqanıstanın yenidən inşası və burada baş tutacaq dövlət quruculuğu idi. 14 noyabr 2001-ci i tarixində Kabilin Talibandan alınmasından sonra, bu terror təşkilatı dağılmış olaraq nəzərdən keçirilirdi. Noyabrın 27-də Bonn şəhərində konfrans təşkil edildi ki, əsas məqsədi Talibandan sonrakı dövrdə yaradılacaq hökumətin istiqamətini müəyyənləşdirmək idi [5:s,64].

Birləşmiş Ştatlar Kabildə qurulacaq hökumətlərin ABŞ meyilli siyasi qüvvələr olmasını istəyirdi. Birləşmiş Ştatlar inanırdı ki, demokratiya Əfqanıstanda sabitliyin və təhlükəsizliyin təminatçısı idi. Həmin dövrdə ABŞ

xarici işlər nazir olan Kondoliza Rayz 2001-ci ildə öz nitqində bildirmişdi ki, Əfqanıstanda demokratik bir dövlət qurmaq Amerikanın maraqlarına uyğundur. Bunun üçün ilk növbədə Taliban rejimini ləğv etmək və ABŞ nəzarətində bir hökumət qurmaq lazımdır. Buş hökuməti əslində, Əfqanıstanda yenidən bir ölkə qurmaq üçün Marşal planı kimi bir addıma cəhd göstərmişdi.

Konfransın nəticəsi olaraq, Bonn sazişi qəbul edildi ki, mahiyyət olaraq Əfqanıstanda təhlükəsizliyin dövlət mərkəzli bir rejim ilə təminatını nəzərdə tuturdu. Görüşdə bəzi öndə gələn əfqan liderləri də iştirak edirdi. Qəbul olunan sənəddə qeyd olunudu ki, Əfqanıstan uzlaşmaya meyilli bir hakimiyyət ilə idarə edilməli, əfqan xalqının hüquqları qorunmalı və davamlı bir sülh şəraiti yaradılmalı idi. Əfqan qruplaşmaları müvəqqəti hökumətin yaradılmasında razılığa gəldilər. Bonn sənədi Əfqanıstanda bir sıra siyasi qurumların yaradılmasına gətirib çıxardı. Onlardan ən məşhuru Konstitusiya Komissiyası idi. Əsas məqsədi xalqın iştirakını da təmin edərək yeni konstitusiya hazırlamaq idi. Ölkədə təhlükəsiliyi təmin etmək missiyası isə əsasən Beynəlxalq Təhlükəsizliyə Dəstək Qüvvələrinə (İSAF) verildi. Konfransda atılan addımlar Təhlükəsizlik Şurasının 1386 nömrəli qərarı ilə təsdiq edildi.

Amerika Birləşmiş Ştatları prezidenti Corc U. Buşun dövründə qəbul olunan Bonn bəyənnaməsi Əfqanıstanın müvəqqəti hökumətinin qurulmasının xətlərini formalaşdırdı. Sənədə görə, Həmid Kərzainin başçılığı ilə hökumət təşkil olunacaq və 29 nazirlikdən ibarət olacaqdı. Onların 11-i puştun, 8-i tacik, 5-i xəzəra, 3-ü özbək, yerdə qalanları isə digər etnik qruplardan təşkil ediləcəkdi. Bonn sazişi Əfqanıstanın siyasi transformasiyasını 3 mərhələyə bölürdü. İlk olaraq, Kərzainin rəhbərliyi ilə 30 nəfərdən ibarət Müvəqqəti Hökumət qurulacaqdı. İkinci addım 21 nəfərdən ibarət komissiyanın yaradılmasını nəzərdə tuturdu. Komissiya iki il içərisində tam səlahiyyətli bir hökumət qurulana qədər bir prezident və hökumət seçməli idi. Son olaraq da, müvəqqəti hökumət qurulduqdan sonrakı 18 ay içində yeni konstitusiyanı hazırlamalı olan Əfqan Ali Məhkəməsinin və digər məhkəmələrin təşkil olunmasını planlanmışdı. Bütün bu qərarların qəbulu zamanı Amerika Birləşmiş Ştatları xüsusi rol oynamışdı.

2002-ci ildə BMT TŞ Kabil Bəyənnaməsi adı ilə bilinən sənədi qəbul etdi. Sənəd təşkilatın 1453 saylı qərarı ilə qəbul edilmişdi. Bəyənnamə Əfqanıstan və ona qonşu olan dövlətlər arasında imzalandı. Tam adı isə "Mehriban Qonşuluq Münasibətləri Çərçivəsində Kabil Bəyənnaməsi" idi. Bəyənnamə ilə Pakistan da daxil olmaqla, region dövlətləri Kərzai hökumətini dəstəklədi. Əlavə olaraq, yenidənqurma dövründə bu ölkəyə 560 milyon dollara yaxın vəsait dəyərində yardım və borclar vermişdir. Qısaca olaraq qeyd etsək, sənəd Əfqanıstanın yeni hökumətinin qonşu dövlətlərlə münasibətlərini inkişaf etdirməyi nəzərdə tuturdu.

Talibandan sonra Əfqanıstanın yenidənqurulmasının iqtisadi aspektləri 2002-ci ilin yanvar ayında Yaponiyanın paytaxtı Tokyo şəhərində keçirilən konfransda müzakirə edildi. Əfqanıstanın yenidənqurulmasına dəstək məqsədilə çağırılan konfransda yenidənqurma planları ilə bağlı danışıqlar keçirildi və müəyyənləşdirildi. Danışıqların nəticəsində Müvəqqəti Hökumət ilə yenidənqurma dövrünün əsas müddəaları ilə bağlı razılığa gəlindi. Bu müddəalara dövlət qulluqçularının məvaciblərinin ödənilməsi, yol, elektrik və kommunikasiya sistemlərinin qurulması, qız uşaqları da daxil olmaqla təhsilin və tədrisin təşkili, iqtisadiyyatın formalaşdırılması kimi amillər daxil idi. Tokyo konfransında qərara alınan mülki yardımlar və 2002-ci ilin may ayında Çikaqoda keçirilən NATO-nun zirvə görüşündə alınan qərarla əfqan hərbi qüvvələrinə ediləcək 4.1 milyard dollarlıq yardımın bu ölkənin rekonstruksiya dövrünə töfhə verəcəyi gözlənilirdi [5:s,64].

Xarici Əlaqələr Şurası 2003-cü ildə Birləşmiş Ştatların Əfqanıstana qarşı siyasətini bir sıra müddəalarla xarakterizə edirdi. Bu müddəalara demokratik əfqan dövlətini qurmaq, sülhü təmin etmək və terroristləri kənarlaşdırmaq, ölkə sərhədlərinin təhlükəsizliyin təmin edilməsi, qadınların haqlarının qorunması, nartotik ticarətinə mane olmaq və s. aid idi. Hesabatın verdiyi məlumata əsasən ABŞ-nin Əfqanıstanla bağlı prioritetlərinə demokratik hökumət qurmaq, Əfqanıstanı beynəlxalq münasibətlər inteqrasiya etmək və ərazi bütövlüyünü təmin etmək aid idi. Hesabat həmçinin prezident Buşa bir sıra tövsiyyələr də irəli

sürürdü ki, bunlara Kərzainin mövqeyini gücləndirmək, ölkədəki təhlükəsizlik, iqtisadi və diplomatik yenidənqurmaya diqqəti cəmləmək, əfqan ordusunu inkişaf etdirmək və ona təlimlər keçmək kimi amillər daxil idi.

Dövlətin qurulmasında əhəmiyyətli amillərdən biri olan konstitusiyanın qəbulu Əfqanıstan üçün də gündəmdə olan məsələlərdən biri idi. Bonn sazişi xalqın iştirakı ilə konstitusiya təşkil etməli olan Konstitusiya Komissiyası ilə Əfqanıstanda qanuni zəminin hazırlanmasını nəzərdə tutmuşdu. Təxminən yarım milyona yaxın əfqan vətəndaşından konstitusiyaya hansı maddələrin salınması ilə bağlı fikirləri soruşuldu. ABŞ-nin liderliyi ilə beynəlxalq ictimaiyyət əfqan hökumətinə öz hakimiyyətini təmin etmək üçün dəstək vermişdi. Konstitusiya Komissiyasının fəaliyyətləri nəticəsində 2003-cü ilin noyabrında yeni konstitusiya hazırlanmış, müxtəlif dəyişikliklərdən sonra 2004-cü ildə ərsəyə gəlmişdi. 2004-cü ildə “böyük məclis” mənasını verən və 1500 nəfərdən ibarət olan Loya Jirga yeni konstitusiyanı qəbul etdi. Konstitusiya sözügedən məclis tərəfindən 8 yanvar tarixində ratifikasiya edildi və 16 yanvarda qüvvəyə mindi [41].

Yeni konstitusiya ilə təşkil olunmuş Əfqanıstanın siyasi sistemi birbaşa xalq tərəfindən seçilən bir prezident, iki prezident müavini, iki məclisli və asılı olmayan məhkəmə sisteminə əsaslanan bir sistem idi. Prezident həm dövlətin, həm də hökumətin başçısı hesab olunurdu. Konstitusiya prezidentə güclü səlahiyyətlər vermiş və mərkəzi hakimiyyətin gücünü xeyli artırmışdı. Konstitusiyanın əsas mahiyyəti hansısa qüvvələrin hakimiyyəti qeyri-qanuni yollarla ələ keçirməsinin qarşısını almaq idi. Məlum məsələ idi ki, həmin dövrdə ölkə ərazisində siyasi sabitlik bərqərar olmamışdı.

Konstitusiyanın qəbulunun ardınca BMT-nin dəstəyi ilə Əfqanıstanda ilk dəfə 9 oktyabr 2004-cü il tarixində sərbəst seçkilər təşkil olundu. 55 % səs ilə Həmid Kərzai qalib gəldi. 2005-ci ilin 18 sentyabr tarixində həyata keçirilən seçkilər nəticəsində 249 yerdən ibarət Milli Məclis (Volesi Jirga) və 102 yerdən ibarət senat ilə iki məclisli parlament təşkil olundu.

Əfqan məclisi 2006-cı ilin 19 dekabrında rəsmi olaraq fəaliyyətə başladı. Qadınların da idarəçilikdə iştirakını təmin etmək üçün aşağı palatanın 68 yeri qadınlar üçün ayrılmışdı. Senatdakı 102 yerin üçdə biri ölkənin 34 Vilayət Məclislərinin üzvlərindən, üçdə biri rayonların ümumi məclislərinin üzvlərindən, son üçdə biri isə prezident tərəfindən seçilirdi.

Corc Buşun dövründə Amerika Əfqanıstana qarşı fəal siyasət yeridərkən beynəlxalq cəmiyyətin dəstəyini də qazanmışdı. Təhlükəsizlik Şurasının 2003-cü ilin oktyabrında qəbul etdiyi 1510 saylı qərar mərkəzi hökumətin səlahiyyətlərinin bütün ölkə ərazisinə yayılmasının əhəmiyyətini vurğulamış və ISAF-a yenidənqurma şəraitinin təhlükəsizliyini təmin etmək üçün geniş səlahiyyətlər vermişdir. Bonn sazişi ilə Böyük Britaniyanın liderliyində 18 ölkədən ibarət olan ISAF komandanlığı NATO-ya ötürüldü. 2006-cı ilin yanvarından başlayaraq, ISAF qüvvələri Cənubi Əfqanıstan ərazisindəki amerikan qüvvələrini əvəzləməyə başladı. Bu da Birləşmiş Ştatların maliyyə xərclərini azaltdı.

2004-cü ildə Əfqanıstan və ABŞ arasında iqtisadi sahədə münasibətlər quruldu. Ölkələr arasında Ticarət və İnvestisiya Çərçivə Sazişi imzalandı. Bu sazişlə iki ölkənin uzunmüddətli ortaqlıqlarının bir simvolu kimi xarakterizə edilirdi. ABŞ-nin məqsədi Əfqanıstanın ticarət tutumunu artırmaq və onu dünya ticarət şəbəkəsinin bir üzvünə çevirmək idi. Məhz, ABŞ-nin dəstəyi ilə 2016-cı ildə bu ölkə Dünya Ticarət Təşkilatının üzvünə çevrildi. Buş adminstrasiyasının başlatdığı bu münasibətlərlə ABŞ-nin Əfqanıstana ixracının həcmi də artdı. 2004-cü ildə 150 milyon dollar idisə, 2016-da bu göstərici 721 milyon dollara yüksəlmişdi [5:s,64-68].

Əfqanıstanın yenidənqurma dövrünün hərbi aspektində Birləşmiş Ştatlar bu ölkədə öz mövcudluğunu qorumağa davam edirdi. ABŞ digər tərəfdən ilk dövrlərdə NATO-ya tabeli ISAF-ın rəhbərliyini də edirdi. Hansı ki, bu qurum sözügedən əraziyə BMT tərəfindən göndərilmişdi. 2014-cü ilin dekabrında ISAF-ın missiyası başa çatdı. Bu tarixdən etibarən ölkədə təhlükəsizliyin cavabdehliyi Əfqan Milli Müdafiə və Təhlükəsizlik Qüvvələrinə (ANDSF) verildi. ISAF

missiyasının bitməsindən sonra NATO burada “Qərarlı Dəstək Missiyası”nın (Resolute Support Mission) əsasını qoydu. Missiyanın məqsədi əfqan təhlükəsizlik qüvvələrinə təlimlər keçmək, məsləhətlər və kömək göstərməkdən ibarət idi. ABŞ başda olmaqla, bir çox NATO ölkəsi bu missiyaya öz dəstəyini göstərdi. Yəni, ISAF-ın ölkədə vəzifəsinin bitməsindən sonra, ABŞ adı çəkilən missiya ilə öz varlığını davam etdirdi.

Rekonstruksiya dövründə Birləşmiş Ştatların Əfqanıstana iqtisadi cəhətdən də yardımı olmuşdur. Buna misal olaraq, 2016-cı ildə Belçikanın paytaxtı Brüssel şəhərində Əfqanıstana həsr olunmuş görüşü göstərə bilərik. Görüşdə ABŞ başda olmaqla, iştirakçı ölkələr 2020-ci ilə qədər bu ölkəyə 15 milyard dollar həcmində dəstək göstərmək mövzusunda razılıq əldə etdilər. Göstəriləcək yardımlar ölkədə iqtisadi inkişafı təmin etmək, ədliyyə sistemini yaxşılaşdırmaq, tibb, təhsil və qadın hüquqlarının yaxşılaşdırılması kimi sahələrə sərf edilməli idi [5:s,64-68].

11 sentyabr hücumlarının ardından ABŞ terrora qarşı mübarizədə Əfqanıstandan sonra öz istiqamətini İraqa yönəltdi. ABŞ-nin Mərkəzi Qüvvələr Komandanlığının (CENTCOM) direktivi əsasında İraqı işğal etmək və Səddam rejimini devirməklə bağlı 28 dekabr 2001-ci il tarixli və 4 mərhələdən ibarət plan qəbul edildi:

1. Həyata keçiriləcək əməliyyatlardan əvvəl birlikdə hərəkət edəcək koalisiya qurmaq və beynəlxalq ictimaiyyətin dəstəyini əldə etmək;
2. İraq cəmiyyətinin və əsgərlərinin dirəniş güclərini qırmaq üçün psixoloji və hərbi əməliyyatlar həyata keçirmək;
3. İraq ordusunu məğlub etmək və mövcud rejimi devirmək üçün hərbi əməliyyatlar həyata keçirmək;
4. Təşkil olunacaq yeni İraq hökumətinə keçidi təmin etmək və davamlılıq əməliyyatları həyata keçirmək;

2003-cü ilin mart ayında başlayan işğal planının əsaslarını təşkil edən anlayışlara Səddam rejimi daxildən dağılana qədər hərbi təzyiq tətbiq etmək, əcnəbi bir idarəçilik altında İraqda müvəqqəti hökumət qurmaq aid idi.

Mart 2003 tarixində başlayan işğal aprelin sonlarına qədər davam etdi. Mayın əvvəli Amerikan hökuməti hərbi əməliyyatların başa çatdığını elan etdi. 2003-cü ilin may ayından ilin sonuna qədər baş tutan qarşıdurmalar həm koalisiya qüvvələri, həm də İraq tərəfdən insan itkiləri ilə nəticələndi. Bu dövrdə koalisiya qüvvələri 408 ölü, 200 yaralı vermiş, qarşı tərəfdən 10 min şübhəli tutmuş və 600 üsyançını öldürmüşdü.

Qeyd edək ki, nəzərdə tutulan 4 mərhələ içərisində ABŞ üçün önəmli və əsas əhəmiyyət daşıyan mərhələ dördüncü mərhələ olmuşdu. Buna baxmayaraq, koalisiya qüvvələri ən çox sərfiyyatı üçüncü mərhələ zamanı etdilər. Sərfiyyat dedikdə, buraya vaxt, hərbi personal və texnika aid edilir [42:s,13-15].

Amerika hökuməti İraqın işğalı ilə eyni zamanda sabiq generallardan birini, Cey Qarneri İraqın mülki rəhbəri olaraq təyin etdi. Qarner 21 aprel 2003cü ildə Yenidənqurma və Humanitar Yardım İdarəsinin (YHYİ) sədri kimi fəaliyyətinə başladı. Onun əsas işini beynəlxalq yardımları və bərpa işlərini əlaqələndirmək və qurulmalı olan yeni hökuməti izləmək idi. Qarner özünə Bağdad şəhərində ofis açdı, polis qüvvələri təşkil etməyə çalışdı və və neft sənayesinin canlandırılması üçün fəaliyyətlər göstərdi.

Təəssüf ki, Qarnerin rəhbərlik etdiyi YHYİ may ayının ortalarına qədər özünü kifayət qədər göstərə bilmədi. Həmçinin müharibədən sonrakı dövrdə qayda-qanunu və nizamı təmin etməyi bacarmadı. Digər tərəfdən, İraq ordusunun statusunun müəyyənləşməsinə dair heç bir qərar alınmadı və onların taleyi qeyri-müəyyən qaldı. Bütün bunlar Buş hökumətini İraqda idarəçiliyə Paul Bremeri gətirməyə sövq etdi. Bremer təcrübəli bir diplomat idi. O, 7 may 2003-cü il tarixində təyin olunduğu vəzifəsinə 12 may tarixində başladı. YHYİ isə, Koalisiya Müvəqqəti Hökuməti (KMH) ilə əvəz olundu. İraq ərazisində qanuni bir hökumət qurulana qədər KMH-ya buranı idarə etmək səlahiyyəti verildi [9: s,386-387].

16 may 2003-cü il tarixində KMH 1№-lu qərarı ilə özünə "öz hədəflərini yerinə yetirmək üçün qanunverici, icraedici və məhkəmə səlahiyyətləri" verdi. BMT

TŞ 22 may 2003-cü il tarixli 1483 №-lu qərarı ilə bunu təsdiqlədi. Beləliklə, BMT İraqda müvəqqəti idarəçiliyi Böyük Britaniya və ABŞ-yə buraxdı.

İyulun 23-də isə 25 nəfərdən ibarət İraq İdarəçilik Şurasının (İİŞ) əsası qoyuldu. Beləliklə, Koalisiya Müvəqqəti Hökuməti öz səlahiyyətlərinin İraq mənşəli bir orqanla bölüşməyə başladı. Şuranın formalaşmasında dini mənsubiyyət (müsəlman, xristian), etnik mənsubiyyət (türkmən, kürd, ərəb) və məzhəblər (sünni və şiə) kimi amillər nəzərə alınmışdır. 30 iyul tarixində isə beş sünni, iki şiə və iki kürddən ibarət Sədrlik Şurası yaradıldı. Sədrlik Şurasının üzvləri əlifba sırasına uyğun olaraq İraq İdarəçilik Şurasına rəhbərlik edəcəkdilər. 14 avqust tarixində isə, BMT TŞ 1500 №-lu qərarı ilə İİŞ-nı tanıdı [9:s,386-390].

Səddam rejimi devrildikdən sonra ölkədə idarəçilik boşluğu yaratdı. Bu isə, öz növbəsində ölkədəki müxtəlif qrupların fəallaşmasına gətirib çıxardı. 2003-cü ilin yay aylarından etibarən sünni direniş qrupları, "islamçı terroristlər", şiə milisləri və müxtəlif kürd qrupları muxtariyyət tələb etməyə başladılar. Ölkə ərazisi mübarizə meydanına çevrildi [42:s,15].

15 noyabr 2003-cü il tarixində Koalisiya Müvəqqəti Hökuməti ilə İraq İdarəçilik Şurası arasında "Siyasi Proseslər Haqqında Razılaşma" imzaladı. Razılaşmaya görə, BMT TŞ tərəfindən səlahiyyət alan bu iki qurum İraqın idarəçiliyi üçün "Təməl Qanun"un hazırlanması, təhlükəsizliyə dair düzəlişlərin qəbulu və Müvəqqəti Məclisin qurulmasına dair vaxt təyin etməli idi. Razılaşmaya görə 2004-cü ilin 31 may tarixinə qədər Müvəqqəti Milli Məclis (MMM) toplanmalı, Müvəqqəti Hökumət (MH) qurulmalı və İraq İdarəçilik Şurası ləğv edilməli idi. Əlavə olaraq, 30 iyun 2004-cü il tarixinə qədər KMH öz idarəçilik səlahiyyətlərini Müvəqqəti Hökumətə ötürməli və ləğv edilməli idi. MH və MMM seçkilərin keçirilməsini təşkil etməli idi. Nəhayət, keçid dövrü konstitusiyanın referenduma təqdim edilməsi və 15 dekabr 2005-ci il tarixinə qədər yeni hökumətin seçilməsi ilə tamamlanacaqdı [9:s,391-392].

2003-cü ili sonlarına doğru Amerikan ordusu yorulmağa başladı. Bunun səbəblərindən biri işğalın müddətinin bu qədər uzanacağını heç kimin

düşünməməsi idi. Bu genişmiqyaslı və qarışıq dövr nisbətən məhdud hədəflərə nail olmağa öyrəşən ordu liderləri üçün çətinliklər yaradırdı. Digər tərəfdən 90-cı illərdəki İraq müharibəsi və bu müharibə bir-birindən fərqlənirdi. Belə ki, Soyuq müharibə dövründə baş tutan müharibələrdə önəmli olan müharibənin necə nəticələnməsi idisə, artıq əhəmiyyət daşıyan amil müharibədən sonrakı dövr idi. Bu amil sülhün qorunub saxlanmasına böyük təsir edə bilərdi. Digər tərəfdən, buradakı vəziyyətin düzgün qiymətləndirilməməsi də müharibədən sonrakı dövrdə Amerikan hökumətinin qətiyyəti təmin edə bilməməsinə və üsyanlara gətirib çıxardı.

Eyni zamanda hərbi kəşfiyyat sadəcə İraq Cümhuriyyət Mühafizəçilərinə istiqamətlənmiş və qeyri-mütəşəkkil hərbi qruplaşmalar nəzərə alınmamışdı. İraqdakı qruplaşmalar və tayfalar kimi qarışıq təbiətli sosial faktorların gözardı edilməsi ABŞ üçün problem yaradan elementlərdən biri idi. Bu faktorlar haqqında məlumat toplanmaması və ölkənin demoqrafik quruluşunun yetərincə öyrənilməməi bu problemin kəskinləşməsinə səbəb oldu.

Cənubdan Bağdada doğru irəliləyən və Cümhuriyyət Mühafizəçiləri ilə qarşılaşacağını düşünən ABŞ ordusu fədailər və qeyri-mütəşəkkil hərbi qruplarla qarşılaşaraq da bir sıra çətinliklər yaşadı. Təhlükələrin artdığını görən amerikan əsgərləri bundan mənfi şəkildə təsirləndilər.

Əsas hədəf kimi nəzərdə tutulan "rejimin devrilməsi" gözləniləndən qısa zamanda həyata keçdi. Bu ani dəyişiklik öz növbəsində İraqın dövlət quruluşunu çökdürdü. Ölkədə qayda-qanun və sabitlik deyə bir şey qalmamışdı. Nizamı təmin edəcə heç bir idarəçilik yox idi deyə İraqlıların əksəriyyəti dövlət binalarını yağmalamaqla məşğul idilər. Əlavə olaraq, ABŞ-nin qısa zamanda nizamı yenidən təmin edəcəyinə və rifah gətirəcəyinə inanan iraqlılar da böyük məyusluq yaşadılar. Nəticə olaraq, İraqda sosial nizam pozulmağa başladı.

2004-cü ilin mart ayına doğru koalisiya qüvvələri həm strategiyalarını, həm də ümumi ölkə ilə bağlı planlarını yenidən nəzərdən keçirdilər. Bütün çətinliklərə baxmayaraq, koalisiya rəhbərləri yaxın zamanda İraqda sabitliyin təmin

ediləcəyinə və bu missiyanın artıq NATO və ya BMT kimi bir təşkilata veriləcəyinin ümid edirdilər.

Əksinə, koalisiya qüvvələrinə qarşı döyüşən qruplar isə artıq uzunmüddətli planlar qurmağa və həyata keçirməyə başlamışdılar. Məsələn, İran şiələrin çoxluq təşkil etdiyi ərazilərdə özü üçün dayaq yaratmağa və bu istiqamətdə hərəkət etməyə başlamışdı. İşğalın birinci ildönümündə İraq hər an partlaya biləcək bir silah halına gəlmişdi. Ölkədə qarışıq bir vəziyyət hökm sürürdü. Əhalidə müxtəlif fikir ayrılıqları yaranmışdı. Bəziləri koalisiya qüvvələrinin fəaliyyətlərinə mənfi reaksiya bəsləyir, bəziləri dərin məyusluqlar yaşayır, bir qismi isə sadəcə ölkələrinin normal vəziyyətə qayıtmasını arzulayırdı.

Aprel ayına gəldikdə isə, vəziyyət biraz daha gərgin idi. Belə ki, bütün problemlər eyni zamanda meydana gəlməyə başlamışdı. Amerikanın itkilərinə nəzər saldıqda, 2004-cü ilin apreli müharibənin ən pis ayı kimi görünürdü. Ay ərzində 137 əsgər həlak olmuşdu. Bu göstərici müharibənin ilk 6 həftəsində cəmi 138 idi. Bu səbəblə, həmin aprel ayını “qara aprel” olaraq da adlandırırlar. Həmçinin aprel ayı ərzində İraqda yüni üsyanlar da başladı.

2004-cü ilin payız aylarında İraqın bir sıra şəhərlərində koalisiya qüvvələri ilə iraqlı qruplaşmalar arasında toqquşmalar oldu. Nəticə olaraq, Nəcəf, Fəllucə və Samarra ərazilərindəki əməliyyatlar şiə və sünni məzhəbli döyüşçüləri bölgədən uzaqlaşdırdı. Beləliklə, 2005-ci ilin yanvarında keçiriləcək seçkilərə təhlükə törədən amillər aradan qaldırıldı. 2004-cü ilin dekabrında artıq koalisiya liderlərinin seçimlərin reallaşa biləcəyinə dair ümidləri daha konkret hal aldı [42:s,15-23].

2004-cü ilin noyabrında Milli Məclisə seçkilərin vaxtı müəyyən olundu. Seçkilər 30 yanvar 2005-ci il tarixində keçirilməli idi. Eyni zamanda dirəniş hərəkatının fəallaşması bir sıra problemlərə səbəb oldu. Sünni din adamları ölkədəki Amerikan və digər əcnəbi qüvvələrin ölkədən çıxmaq üçün konkret bir təqvim təqdim etmədən seçkiləri qəbul etməyəklərini və boykot edəcəklərini bildirdilər. Bu azmış kimi, Əl-Qaidə də seçimlə bağlı təhdidlər irəli sürdü. Sünni sakinlərin sıx yaşadığı yerlərdə seçici sayı az olduğundan sünni siyasətçilər seçkilərin təxirə salınmasını tələb etdilər. Bu isə rəhbər idarələrə həm seçkilərin

təhlükəsizliyini təmin etmək, həm də sünnilərin seçkiləri boykot etməsinin qarşısını almaq üçün əlavə vaxt qazandırdı. Onu da qeyd edək ki, nə ABŞ idarəçiliyi, nə də şiələr seçkilərin təxirə salınmasını doğru hesab etmədilər.

Seçkilərin keçirilməsi ilə bağlı bir sıra təhlükəsizlik tədbirləri alındı. Bəzi vətəndaşlar səs verəcəkləri seçki məntəqəsinin hansı olduğunu seçkidən cəmi 24 saat əvvəl öyrəndilər. Bəzi seçki məntəqələri isə bağlandı və yerləri dəyişdirildi. Bütün çətinliklərə baxmayaraq, İraq xalqı seçkidə fəal iştirak etdi. Seçkidə iştirak nisbəti 60 %-ə çatdı. Seçki günü 260-a yaxın hücumlar oldu. 14 təhlükəsizlik işçisi və 24 mülki vətəndaş həyatını itirdi.

2005-ci ilin yanvar və aprel ayları arasında ABŞ-nin tətbiq etdiyi strategiya məsuliyyətin İraq Təhlükəsizlik Qüvvələrinə və hökumətinə ötürülməsi üçün lazım olan sabitliyi yaratmaq idi. Koalisiya qüvvələrinin uğurlu əməliyyatları nəticəsində seçkilər nisbətən təhlükəsiz şəraitdə keçirildi. Apreldən avqusta qədərki dövrdə isə, əsas diqqət Fərat çayının qərb sahilində təhlükəsizlik problemlərinin artmasına və təhlükəsizlik tədbirlərinin alınmasına yetirilmişdi [42: s,23].

# N Ə T İ C Ə

XX əsrin sonlarında Sovet İttifaqının dağılması ilə Soyuq müharibə başa çatdı. Beynəlxaq aləmdə birqütblülük bərqərar oldu və yeni şəraitdə ABŞ dünyanın tək supergücü mövqeyini qazandı. Bu dövrdə ABŞ-nin əsas məqsədi öz hegemoniyası altında yeni dünya nizamını qurmaq idi.

90-cı illərdə ABŞ-nin xarici siyasətdə məşğul olduğu məsələlərə Rusiyanın demokratikləşdirilməsi, keçmiş SSRİ respublikalarınının Sovet təsir dairəsindən uzaqlaşdırılması, NATO-nun genişləndirilməsi və hər zaman olduğu kimi Yaxın Şərq siyasəti kimi amillər aid idi.

Rusiya Federasiyası ilə müsbət əlaqələrin əsasının qoyulması və bu ölkənin beynəlxalq sistemə inteqrasiyası üçün edilən cəhdlər, NATO-nun əhatə dairəsinin genişləndirilərək, Mərkəzi və Şərq Avropa dövlətlərini əhatə etməsi kimi hadisələr Corc H. Buş və Bill Klinton adminstrasiyaları üçün xarakterik cəhətlərdəndir.

XX əsrin son onilliyi Cənubi Qafqaz respublikaları, o cümlədən, bizim ölkəmiz üçün əhəmiyyətli dövr hesab olunur. Belə ki, Amerika Birləşmiş Ştatları yenicə müstəqillik qazanmış bu ölkələrin dövlət müstəqilliklərini tanımış və onlarla diplomatik münasibətlər yaratmışdır.

2000-ci ildə ABŞ-də keçirilən prezident seçkilərində Respublikaçılar partiyasının namizədi Corc Uoker Buş qalib gəldi. Birləşmiş Ştatların 43-cü prezidenti olan Buş hakimiyyətinin başlanğıcında əsasən yeni neft-qaz mənbələrinin tapılması ilə maraqlanırdı, lakin 2001-ci sentyabrında gözlənilməyən bir hadisə baş verdi. ABŞ-nin qüdrətinin rəmzi olan Əkiz Qüllələr və Müdafiə Nazirliyinin binası olan Pentaqon qoxunc bir terror hücumuna məruz qaldı. Ağ Evin binası isə son anda eyni aqibətə uğramaqdan xilas oldu.

Hadisə bütün dünyanın gündəmini məşğul etdi. 11 sentyabr hadisələri həm ABŞ-nin, həm də bir sıra dövlətlərin taleyinin dönüş nöqtəsi oldu. ABŞ yeni xarici siyasət xəttini qlobal terrora qarşı müharibə elan etməklə istiqamətləndirdi. Buş doktrinası qəbul edildi, daxili və xarici təhlükəsizliklə bağlı əhəmiyyətli addımlar

atıldı. Vətənpərvərlik aktı , Kəşfiyyat İslahatı kimi sənədlər qəbul edildi, Vətənin Təhlükəsizliyi İdarəsi yaradıldı. Buş hökuməti ona dəstək verməyən dövlətləri terroru dəstəkləməklə günahlandırdı. 29 yanvar 2002-ci ildəki çıxışında Şimali Koreya, İran və İraq kimi ölkələri "şər oxu" adlandırdı.

11 sentyabr hadisələrindən sonra ilk dəfə NATO Nizamnamnaməsinin 5-ci maddəsinin qüvvəyə minməsi gündəmə gətirildi. ABŞ-nin rəhbərliyi ilə beynəlxalq terrorla mübarizə koalisiyası yaradıldı. Başda NATO üzvləri olmaqla, dünyanın bir çox ölkələri koalisiyaya müxtəlif yollarla öz dəstəklərini göstərdi: hərbi qüvvə göndərdi, hava məkanını ABŞ təyyarələri üçün açdı və s.

Koalisiyanın ilkin hədəfi Əfqanıstan oldu. Belə ki, hücumların arxasında Əl-Qaidənin olduğunu düşünən Buş hökuməti Əfqanıstandakı Taliban rejimindən Əl-Qaidə lideri Bin Ladeni təslim etməti tələb etdi. Molla Ömər bu tələbi rədd etdikdən sonra 7 oktyabr 2001-ci ildə ABŞ və Böyük Britaniya qüvvələri Əfqanıstana hava hücumunu başlatdı. Əfqanıstana qarşı Tora-Bora və Anakonda əməliyyatları həyata keçirildi. Əfqanıstandakı əməliyyatlara həm də Talibanın əfqan müxalifləri də qatıldı. Nəticədə,Taliban devrildi, Bin Laden isə Pakistana qaçdı.

Növbəti istiqamət isə İraq oldu. Buş hökuməti Səddam rejimini devirməyi qarşısına məqsəd qoymuşdu. İraqa müdaxilə üçün ABŞ-nin gətirdiyi əsas bu ölkənin kütləvi qırğın silahlarına sahib olması idi. Bundan əlavə ABŞ İraqı KQS mövzusunda BMT ilə Əməkdaşlıq etməmək və terror təşkilatlarını dəstəkləməklə ittiham etdi. 2003-cü ilin martında başlayan ilkin əməliyyatlar aprelin sonuna qədər çəkdi. Nəticədə, İraqda rejim devrildi və Səddam Hüseyn tutularaq ölüm cəzasına məhkum edildi. Sonradan İraqı araşdıran komissiya burda KQS-yə rast gəlinmədiyini elan etdi. Bu isə Buş rejiminin məqsədləri haqqında sualların meydana gəlməsinə səbəb oldu.

ABŞ-nin İraqa qarşı kəskin addımlarının arxasında bu ölkənin İsrailin maraqlarına uyğun şəkildə davranması da istisna edilmir. Belə ki, ABŞ Yaxın Şərqdəki müttəfiqi İsrailin təhlükəsizliyinə böyük önəm verirdi. Burada Buş

adminstrasiyasında olan yüksək vəzifəli şəxslərin əksəriyyətinin yəhudi mənşəli olması da mühüm rol oynayırdı.

Həm İraq, həm də Əfqanıstanda mövcud rejimlər devrildi və müvəqqəti hökumətlər quruldu. Əfqanıstan məsələsində ABŞ beynəlxalq ictimaiyyətin dəstəyini ala bildi, lakin eyni vəziyyət İraqda baş tutmadı. ABŞ İraqa müdaxiləsi ilə beynəlxalq hüquq normalarını kəskin şəkildə pozmuş oldu.

ABŞ-nin müdaxiləsindən sonra daxili ziddiyyətlərin və qarışıqlıqların artdığı bu dövlətlərdə bugün də siyasi sabitlik və təhlükəsizlik təmin oluna bilməmişdir. 2021-ci ilin yay aylarında Birləşmiş Ştatlar Əfqanıstandan tamamilə çıxmış, bunun ardınca hakimiyyət yenidən Taliban qüvvələrinə keçmişdir.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

**Azərbaycan dilində:**


1. Məmmədova G.M (2012) XX Əsrin 90-cı illərində NATO-un Şərqə doğru genişlənməsi prosesi, Bakı Universitetinin Xəbərləri, №4, s 124-131.
2. Zeynalabdinov Ə.A (2014). ABŞ-ın Cənubi Qafqazda hərbi-siyasi maraqları (1990-2001-ci llər), Bakı Universitetinin Xəbərləri, №1,s 174-181.
3. Zeynalabdinov Ə.A. Çeçen xalqının azadlıq mübarizəsi (2013), Bakı Universitetinin Xəbərləri, №3, s 182-187.


**Türk dilində:**


4. Ataman,Muhittin, Gökcan Özkan (2012) Bush Dönemi Amerikan Dış Politikası: Bir Aşırı-Yayılmacılık Denemesi, Akademik İncelemeler Dergisi, cilt 7, № 2, s 199-229.
5. Acet,Gül Seda, DOĞAN, Fazlı (2017) 11 Eylül Olayları Sonrası ABD-Afganistan İlişkileri,Sosyal Ekonomik Araştırmalar Dergisi,cilt 17,№ 33,s 59-76.
6. Aksoy, Merve.Küreselleşme ile Değişen Güvenlik Algısı Bağlamında Bush Doktrini// İHH İnsani ve Sosyal Araştırmalar Merkezi, İstanbul: 2016.
7. Ağır, Bülent Sarper, "Bush Doktrini: Küresel Bir Hegemonik İstikrar Arayışı mı?", Uluslararası İlişkiler, Cilt 3, Sayı 12 (Kış 2006- 2007), s. 71-100.
8. Balcı, Aziz (2016) Değişen Dünyada Jeopolitiğin Konumu. Ufuk Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, Sayı:10, s 107-129.
9. Bayram Sinkaya (2007) II Körfez Savaşı Sonrası Irak'ta Yönetimin Yeniden Tesisi. https://www.academia.edu/769743/II_Körfez_Savaşı_Sonrası_Irakta_Yönetimin_Yeniden_Tesisi

10. Bigaç,O. (2020) Körfez Savaşı ve Irak'ın 2003 Yılındaki İşgaline Yönelik Avrupa Birliğinin Yaklaşımı. UPA Strategic Affairs 1, s4-14.
11. Bilensoy,İrem (2018) George W. Bush ve Barack Obama Dönemlerinde Terörizme Karşı Uygulanan Politikaların Karşılaştırılması, Bahçeşehir Üniversitesi, s 50-73.
12. Çolak,Ufuk. 11 Eylül Sonrası ABD'nin Orta Asya Politikası,2009,194 sayfa.
13. Demir, Cenker Korhan (2020) Irak Savaşı'nda ABD Ordusu, Jandarma ve Sahil Güvenlik Akademisi Yayınları,Ankara 2020,119 sayfa.
14. Dündar ,Haris Übeyde.Yeni Hegemonya Anlayışı Çerçivesinde Bush Doktrini Üzerine Bir İnceleme//Elektronik Siyaset Bilimi Araşdırmaları Dergisi.2018,Cilt 9,Sayı 2.
15. Efegil,Ertan (2008) Bush Doktrini Ve Dünya Güvenliğine Etkileri/ /Hacettepe Üniversitesi Türkiyyat Araşdırmaları,s 103-122.
16. Gölçek,Şeyda Güdek (2017) 11Eylül Örtüsünde ABD-nin Zora Dayalı Ortadoğu Politikası: Afganistan ve Irak Örnekleri,Ömer Halisdemir Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Dergisi 10(4) ,s 143-158.
17. Gürel, Onur (2018) Neo-con Yaklaşımın George Bush Yönetimindeki Etkisi ve Donald J. Trump Dönemi Olası Beklentiler, Ege Stratejik Araştırmalar Dergisi,cilt 9,sayı 2.
18. Özben,Fidan (2004) 11 Eylülün ABD Dış Politikasına Etkisi: Irak İşgali, Sakarya Üniversitesi Sosyal Bilimler Enstitüsü, 114 s.
19. Özkan,Abdullah.ABD'nin Ulusal Güvenlik Stratejileri//TASAM,2021 https://tasam.org/tr-TR/Icerik/64857/abdnin_ulusal_guvenlik_stratejileri.
20. Özşimşir,Şafak. (2011) 2003 ABD-Irak Savaşı ve Nedenleri https://www.tuicakademi.org/2003-abd-irak-savasi-ve-nedenleri/.
21. Prof.Dr.Abdullah Özkan. 21. Yüzyılda ABD'nin Küresel Stratejileri.Türkiye:TASAM YAYINLARI,2006,135 sayfa..
22. Usame Bin Ladin Kimdir? (2022) https://www.mepanews.com/usame-bin-ladin-kimdir-15535h.htm.

23.11 Eylül Saldırıları: 2001-de neler yaşandı, 19 yılda neler değişti? (2020) https://www.bbc.com/turkce/haberler-dunya-49653233.

**İngilis dilində:**

24. "Al-Qaeda" (2022) Encyclopedia Britannica https://www.britannica.com/topic/al-Qaeda.

25.Bill Clinton: Foreign Affairs https://millercenter.org/president/clinton/foreign-affairs.

26.Brian C. Schmidt, Michael C. Williams. The Bush Doctrine and the Iraq War: Neoconservatives Versus Realists//Security Studies 2008,Volume 17,Issue 2,page 191-220.

27.Clinton Presidency: A Foreign Policy for the Global Age https://clintonwhitehouse5.archives.gov/WH/Accomplishments/eightyears-10.html.

28.How 9/11 Reshaped Foreign Policy (2001-2004) https://www.cfr.org/timeline/how-911-reshaped-foreign-policy.

29.Global War on Terror (2003) https://www.georgewbushlibrary.gov/research/topic-guides/global-war-terror

30.Ivo H. Daalder, James M. Lindsay (2001) Nasty, Brutish and Long : America's War on Terrorism. https://www.brookings.edu/articles/nasty-brutish-and-long-americas-war-on-terrorism/.

31. Jusuf Wanandi (2002) A Global Coalition against International Terrorism, International Security,vol 26, №, p 184-189.

32.Kenneth Katzman, Clayton Thomas (2017) Afghanistan: Post-Taliban Governance,Security ad US Policy, Congressional Reserch Service.

33.Lafeber,Walter (2002) The Bush Doctrine, Oxford University Press, p 543-558.

34.McCormick,James (2009) The Foreign Policy of the Bush Adminstration: Terrorism and the Promotion of Democracy, p 240-266.

35. Nicholas J. Wheeler. The Bush Doctrine: The Dangers of American Exceptionalizm in A Revolutionary Age // Asian Perspective. Vol. 27, No. 4, Special Issue on the Bush Doctrine and Asia (2003), pp. 183-216 (34 pages).
36. Paul F. Diehl , Shyam Kulkarni & Adam Irish The Bush Doctrine and the Use of Force: Reflections on Rule Construction and Application,//9 Loy. U. Chi. Int'l L. Rev. 71 (2011).
37. Peter Brookes (2002) The Anti-Terrorist Coalition in the Pacific https://www.swp-berlin.org/publikation/the-anti-terrorist-coalition-in-the-pacific.
38. Therese Delpech (2002) İnternatonal Terrorism and Europe, İnstitute for Security Studies, № 56, p 55.
39. The Global War on Terrorism: The first 100 Days https://2001-2009.state.gov/s/ct/rls/wh/6947.htm.
40. The President’s State of the Union Address (2002) https://georgewbush-whitehouse.archives.gov/news/releases/2002/01/20020129-11.html
41. The US War in Afganistan (1999-2021) https://www.cfr.org/timeline/us-war-afghanistan.
42. Transformation (2002), Military Review https://www.govinfo.gov/content/pkg/GOVPUB-D110-c8aaef82e26966248e7c3ab0267dc0a9/pdf/GOVPUB-D110-c8aaef82e26966248e7c3ab0267dc0a9.pdf.
43. War in Iraq Begins https://www.history.com/this-day-in-history/war-in-iraq-begins.
44. Witte,Griff. Afganistan War. Encyclopedia Britannica,2021 https://www.britannica.com/event/Afghanistan-War.
45. United States Relations with Russia: After the Cold War https://2001-2009.state.gov/r/pa/ho/pubs/fs/85962.htm.